QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 182 (5902) **4 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur"

*Soçidə Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub*




Səh 2

3

**"Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşü mühüm əhəmiyyətə malikdir"**



10

**Qarayaxma kampaniyası aparan dairələr ifşa edilməlidirlər**




10

**DSX rəisi Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətini yoxlayıb**



# “Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur”

*Soçidə Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub*




***Oktyabrın 3-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşıladı. Dövlət başçıları birgə foto çəkdirdilər.***

Sonra Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında görüş oldu.

Rusiya Prezidenti Vladimir Putin:

Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

İcazə verin, sizin hamınızı ürəkdən salamlayım.

Bu dəfə biz Soçidə beynəlxalq siyasi diskussiya klubu çərçivəsində görüşürük. Tədbir ilk dəfə Valdayda keçirildiyinə görə biz onu “Valday klubu” adlandırırıq.

Görüşümüzün əvvəlində qeyd etmək istərdim ki, Sizi görməyə çox şadam. Biz çoxdandır ki, görüşməmişik. Lakin şəxsi görüşlərimizdə, əlaqələrimizdə fasilə olmasına baxmayaraq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir.

Ticari-iqtisadi əlaqələr möhkəmlənir. Keçən il əmtəə dövriyyəsinin həcmi 2,5 milyard dollar olub. Bu istiqamətdə yaxşı perspektivlərimiz var. Mən o planları nəzərdə tuturam ki, onların əsas müəllifi Azərbaycan Prezidentidir. Biz də öz tərəfimizdən, bu konkret, mənim fikrimcə iri layihələrin reallaşması üçün bizdən asılı olan hər şeyi edirik. Bunun üzərində hökumətlərarası komissiya işləyir və zənnimcə, kifayət qədər inamla işləyir.

Başqa istiqamətlər üzrə münasibətlərimizin vəziyyəti barədə də fikir mübadiləsinə ehtiyac var. Ümidvaram ki, bu gün biz bütün bunlara nail olacağıq. Ümid edirəm






ki, Siz bu maraqlı ümumi diskussiyada iştirak edəcəksiniz. Bu gün buraya gəldiyinizə görə çox sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev:

Dəvətə görə çox sağ olun, Vladimir Vladimiroviç.

Valday diskussiya klubunun işində iştirak etmək mənim üçün böyük şərəfdir. Bu klub bu gün müasir dünya nizamının qlobal aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Əlbəttə ki, bu görüşə görə təşəkkür edirəm.

Sizin qeyd etdiyiniz kimi, biz müəyyən müddətdə, daha dəqiq desəm dörd aydır ki, görüşməmişik. Bizim əlaqələrin intensivliyini nəzərə alsaq, bu, yetərincə böyük müddətdir. Keçən il biz dörd dəfə görüşmüşdük. Bu görüşlər çox müsbət rol oynayır, strateji tərəfdaşların münasibətləri kimi səciyyələndirdiyimiz əlaqələrimizin inkişafına yaxşı təkan verir.

Ticari-iqtisadi sahədə müsbət dinamikanı da qeyd etmək istərdim. Əmtəə dövriyyəsi artır - keçən il də, bu il də. Bizdə olan məlumata görə, avqust ayına qədər artım 20 faizdən çox olub. Sizinlə bizim təsdiq etdiyimiz “Yol xəritələri”nin reallaşdırılması da əlbəttə, daha sıx qarşılıqlı fəaliyyətə, bütün sahələrdə inteqrasiyaya və əməkdaşlığa gətirib çıxaracaq.

Bizim üçün Rusiya ən mühüm tərəfdaş, dost, mehriban qonşudur. Biz bu münasibətləri çox qiymətləndiririk. Əminəm ki, bugünkü diskussiya əlaqələrimizin gələcək inkişafına yaxşı töhfə olacaq.

Dəvət üçün bir daha sağ olun.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, iqtisadi, investisiya qoyuluşu, hərbi və hərbi-texniki, kənd təsərrüfatı, turizm və humanitar sahələrində əməkdaşlıq barədə müzakirələr aparıldı.

Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin təkbətək söhbət etdilər.

# Prezident İlham Əliyev Soçidə Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb






AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə Rusiyanın “Rossiya” və “Birinci” televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb.

# Hikmət Hacıyev: “Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşü mühüm əhəmiyyətə malikdir”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərində işgüzar səfərdədir. Səfər çərçivəsində dövlətimizin başçısının Rusiya Prezidenti ilə görüşü oldu. Görüşdə dövlət başçıları qeyd etdilər ki, Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir. Ölkələrimiz arasında etibarlı və mehriban dostluq, qonşuluq münasibətləri mövcuddur. Bu, əlaqələrimizin hərtərəfli inkişafına münbit şərait yaradır.***



Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Şöbə müdiri qeyd edib ki, Azərbaycan-Rusiya münasibətlərinin dinamik inkişafında dövlətlərimizin başçıları arasındakı təmasların müstəsna rolu var. Keçən il iki ölkənin dövlət başçılarının dörd qarşılıqlı səfəri və bu çərçivədə görüşləri olub. Bunlar da əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Bu ilin aprel ayında isə Pekində ikinci “Bir kəmər, bir yol” Forumu çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin görüşü olub. Azərbaycan və Rusiya prezidentlərinin Soçidə keçirilən görüşündə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafı qeyd olunmaqla yanaşı, bir sıra praktik sahələrdə əlaqələrimizin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda müxtəlif sahələrdə əməkdaşlığı ehtiva edən yol xəritəsi sənədləri diqqətə çatdırılıb.

Ölkələrimiz arasındakı iqtisadi-ticarət əlaqələrindən danışan Hikmət Hacıyev qeyd edib ki, ticarət dövriyyəsinin dinamik artımı göz önündədir. Bu, Azərbaycandan Rusiyaya, Rusiyadan isə Azərbaycana olan ixracda özünü göstərir. Ölkələrimiz, həmçinin neftqaz sektorunda da yaxından əməkdaşlıq edirlər.

Görüşdə əlaqələrimizin inkişafında Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının rolu da xüsusi qeyd olundu. Bildirildi ki, Hökumətlərarası Komissiyanın fəaliyyəti ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişlənməsində mühüm rol oynayır.

Söhbət zamanı dövlət başçıları tərəfindən humanitar sahədə də əlaqələrin inkişafı qeyd edilib. Dövlətimizin başçısı Azərbaycanda rus dilinə xüsusi qayğı olduğunu diqqətə çatdırıb. Tədrisin rus dilində aparıldığı məktəblərlə yanaşı, ali məktəblərdə də rus dilində tədris aparılır. Bu da iki ölkə arasındakı əlaqələrin inkişafının növbəti daha mühüm göstəricisidir.

Şöbə müdiri vurğulayıb ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr aparılıb. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi münaqişənin həlli prosesində yaxından iştirak edir.

Hikmət Hacıyev qeyd edib ki, görüşdən sonra da dövlət başçılarının təkbətək görüşü oldu. Azərbaycan və Rusiya prezidentləri gündəlikdəki məsələlərə dair müzakirələrini davam etdirdilər. “Hesab edirəm ki, bu görüş iki ölkə arasındakı münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir və əlaqələrimizin gələcək inkişafına əsaslı töhfə verəcək”, - deyə Prezident Administrasiyasının rəsmisi əlavə edib.

“Valday” Beynəlxalq Diskussiya Klubunun əhəmiyyətdən bəhs edən Hikmət Hacıyev bildirib ki, bu platforma beynəlxalq münasibətlərin aktual məsələlərinin müzakirəsi baxımından olduqca önəmlidir. Bu tədbirdə dövlət və hökumət başçıları, ekspertlər, biznes və akademik dairələrin nümayəndələri iştirak edirlər.

Bu platforma dövlətimizin başçısı tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələrin gündəliyindəki vacib məsələlərə münasibətdə mövqeyinin ifadə olunması üçün olduqca mühüm imkan yaradır.

## ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfər etməyi planlaşdırırlar



ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfər etməyi planlaşdırırlar. AZƏRTAC xəbər verir ki, bunu Moskvada keçirilən brifinqdə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib. O qeyd edib ki, Azərbaycanla Ermənistan arasında birbaşa danışıqlar bu ölkələrin nümayəndələri tərəfindən anons ediləcək: “Deyə bilərəm ki, Azərbaycan və Ermənistanın Xarici İşlər nazirləri ilə razılaşdırıldığı kimi, ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqlar aparmaq, Dağlıq Qarabağ nizamlanması məsələsini müzakirə etmək üçün bölgəyə səfər etməyi planlaşdırırlar. Səfərin vaxtı dəqiqləşdirilir və biz bu barədə əlavə məlumat verəcəyik”, -deyə M.Zaxarova qeyd edib.

## Binyamin Netanyahunun qardaşı Dövlət Tərcümə Mərkəzində olub

Oktyabrın 3-də tanınmış İsrail yazıçısı, İsrailin Baş naziri Binyamin Netanyahunun qardaşı İdo Netanyahu və İsrail-Azərbaycan Beynəlxalq əlaqələri təşkilatının rəhbəri Arye Qut Dövlət Tərcümə Mərkəzində oldublar. Mərkəzdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə İsrail xalqları arasında tarixən mövcud olmuş dostluq və qardaşlıq münasibətlərindən, Azərbaycan-İsrail ədəbi-mədəni əlaqələrindən, hər iki xalqı bir-birinə doğmalaşdıran mənəvi dəyərlərdən söz açılıb.

İsrailin tarixi, elmi-mədəni, ədəbi irsi ilə bağlı Azərbaycan oxucusuna maraqlı olacaq bir sıra əsərlərin tərcümə və nəşr layihələri, eləcə də Azərbaycan ədəbiyyatını İsrail oxucusuna yaxından tanıdacaq Azərbaycan ədəbiyyatı nümunələrinin ivrit dilində İsraildə nəşri və digər bu kimi məsələlər müzakirə edilib. Görüşün sonunda qonağa, Mərkəz tərəfindən Azərbaycanda nəşr edilmiş, tanınmış yəhudi yazıçısı Şolom Aleyxemin “Seçilmiş əsərləri” kitabı və “Tövrat”ın Azərbaycan dilinə çevrilmiş hissələri yer alan “Xəzər” dünya ədəbiyyatı jurnalının nömrələri hədiyyə edilib.

# 1993-cü ildə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətini qurub-yaratmaqla tarix yazdı

***XX əsrdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemində bəşəriyyətin gələcək taleyinə ciddi təsir edəcək bir çox hadisələr qeydə alınmış və həlledici proseslər baş vermişdir. Bunlardan biri nəhəng geosiyasi vahid - aparıcı, hegemon güc mərkəzlərindən biri olan SSRİ-nin süquta uğraması olmuşdur. Məhz bu qlobal xarakterli geopolitik hadisədən sonra meydana çıxmış müstəqil dövlətlərin hər birində müxtəlif proseslər baş vermiş, sözügedən coğrafiyanın xalqları fərqli siyasi, iqtisadi, sosial və humanitar reallıqlarla üzləşmişlər.***



*Siyavuş Novruzov,*
*YAP İcra katibinin müavini,*
*Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri*

SSRİ-nin tərkibində olan 15 respublikadan biri kimi Azərbaycan isə 1991-ci ildə müstəqillik əldə etdikdən sonra çox ciddi siyasi, sosial-iqtisadi, humanitar xarakterli problemlərlə qarşılaşmışdı, respublikada sabitlik və inkişafdan, nəinki söhbət gedə bilməzdi, hətta ölkə xaos və anarxiya məkanı kimi xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevrilmişdi. Həmin dövrdə respublikaya rəhbərlik edənlərin siyasi səriştəsizliyi, müstəqil qərar vermək və milli maraqlara uyğun siyasət həyata keçirmək iqtidarında olmamaları, mübarizələrini dövlətin mənafeyi uğrunda deyil, öz şəxsi - korporativ maraqları əsasında aparmaları Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini meydana çıxarmışdı. Belə bir ağır vəziyyətdə xalqın və dövlətin xilası üçün zəngin dövlətçilik təcrübəsinə malik olan qətiyyətli liderə ehtiyac var idi. Bu lider, məhz Ümummilli Lider Heydər Əliyev idi. Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev respublikamızı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmaqla, müasir müstəqil Azərbaycan dövlətini qurub-yaratmaqla tarix yazdı. Yüksək vətənpərvərlik və milli təəssübkeşlik hissinə malik olan vətəndaş, tarixi şəxsiyyət və Ümummilli Lider kimi Heydər Əliyev Vətənini fəlakətdən qurtardı, ölkəsini çevriliş cəhdlərindən, xaosdan hifz edərək dirçəliş və inkişafa doğru yönəltdi, cəmiyyətdə özünəinam hissini, ölkəmizdə sabitlik və firavanlığı təmin etdi.

Ümumiyyətlə, Azərbaycan dövlətçilik tarixində Heydər Əliyev şəxsiyyətinin müstəsna yeri və rolu var, Ümummilli Liderin xalqımız qarşısında xidmətləri misilsizdir. Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir, Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə görülən işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq, yeni zirvələr fəth etməsinə xidmət etmişdir.

Bütün bu reallıqları daha yaxşı anlamaq üçün Ulu Öndərimizin xalqımız qarşısındakı ali məramlı, çoxşaxəli və səmərəli, tarixi əhəmiyyətə malik olan fəaliyyətinin müxtəlif dövrlərinə ayrıca nəzər salmaq məqsədəmüvafiqdir. Əvvəla, qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində, ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın tərəqqi dövrü kimi yadda qalıb, yüksək inkişaf göstəriciləri ilə tarixə daxil olub. Bu dönəmdə həm sosial-iqtisadi tərəqqinin, həm də milli həmrəyliyin təmin olunmasına xidmət edən məqsədyönlü işlər görülüb, Azərbaycan SSRİ miqyasında sürətlə inkişaf edən respublikaya çevrilib. Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü də çox mühüm əhəmiyyətə malikdir. Məlumdur ki, 1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin Sədri seçilməsinədək olan mərhələdə Naxçıvan olduqca ağır şəraitdə idi. Ali Məclisin Sədri seçilən Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində Ermənistanın blokadada saxladığı Naxçıvanda sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu ağır şəraitdə Ali Məclisin Sədri seçilən Heydər Əliyevin həyata keçirdiyi islahatlar və gördüyü qətiyyətli tədbirlər sayəsində Naxçıvan erməni təcavüzünü uğurla dəf etdi, dost və qardaş Türkiyə ilə davamlı, hərtərəfli əlaqələrin qurulmasına nail oldu, həmçinin, cənub qonşumuz İranla münasibətlər normallaşdırıldı. Ən əsası, 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı. "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarın qəbul edilməsi, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması da xüsusi vurğulanmalıdır. Bunlarla yanaşı, müxtəlif sahələrdə islahatların həyata keçirilməsi, inkişafa təkan verən tədbirlərin reallaşdırılması Naxçıvanın xilası və dirçəlişinə xidmət edən mühüm addımlar idi.

Qeyd etdiyimiz kimi, həmin dövrdə ölkədə ictimai-siyasi və sosial-iqtisadi vəziyyət olduqca ağır idi. Belə bir şəraitdə 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı Ümummilli Liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası, qısa müddət ərzində, təşkilatlandı və xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli Lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın ən yeni tarixinin möhtəşəm siyasi hadisəsi idi. Çünki bu partiya yarandıqdan sonra avanqard və mütərəqqi siyasi qüvvə kimi milli maraqlara xidmət edən siyasi fəaliyyəti ilə Azərbaycanın inkişafına fundamental töhfələr verdi, ölkədə sabitliyin və təhlükəsizliyin təmin olunmasında misilsiz xidmətlər göstərdi. Bu kontekstdə bir mühüm məqama da xüsusi diqqət yetirmək lazımdır. Məlumdur ki, YAP müxalifət partiyası kimi yaranmışdı, həmin dövrdə özünün nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydaları və formalarını müəyyənləşdirdi, müxalifətçiliyin nə demək olduğunu cəmiyyətə nümayiş etdirdi. YAP göstərdi ki, müxalifətçilik xalqa və dövlətə qarşı fəaliyyət göstərmək deyil, sabitlik və tərəqqiyə xidmət edən mütərəqqi ideyalarla çıxış etmək, cəmiyyətin və ölkənin inkişafı üçün milli maraqlara əsaslanan fəaliyyət göstərməkdir. Ən əsası, Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi sistemini formalaşdırdı, siyasi mədəniyyətin təşəkkülünü təmin etdi. Beləliklə, zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyasının, ötən müddət ərzində, ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsi təsadüfi xarakter daşımır. Hər şeydən əvvəl, Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Monolit və avanqard siyasi qüvvə kimi Azərbaycanın dinamik inkişafına öz layiqli-dəyərli töhfələrini verən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olmasını göstərən ən mühüm amillərdən biri onun öz sıralarında dilindən, dinindən və etnik mənşəyindən asılı olmayaraq, bütün insanları birləşdirməsidir. Bu, partiyamızın yüksək nüfuzunu əks etdirən başlıca göstəricilərdəndir. Ən əsası isə, Yeni Azərbaycan Partiyası güclü liderin ətrafında yaranmış partiyadır. Partiyanın yarandığı dövrə nəzər salanda, görürük ki, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan, ömrünü və bütün fəaliyyətini Öz xalqına və dövlətinə xidmətə həsr edən bir şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam, etimad və dəstəyi artırırdı. YAP-ın fəaliyyəti Heydər Əliyev siyasi xətti olaraq qəbul edilirdi. Bu gün də partiyamız öz fəaliyyətini Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə parlaq qələbələr qazanır. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

Beləliklə, daha sonra 1993-cü il iyunun 9-da isə Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya qayıtması, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi missiyasını həyata keçirməyə başlaması böyük tarixi əhəmiyyətə malik idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, ölkədə davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub-saxlamaq və əbədi etmək idi. Bu, Ümummilli Liderin qətiyyəti və iradəsi sayəsində mümkün oldu. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı.

***Ardı Səh. 5***

# 1993-cü ildə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətini qurub yaratmaqla tarix yazdı

Əvvəli Səh. 4




Şübhəsiz, ölkəmizdə 3 oktyabr 1993-cü il tarixində keçirilən prezident seçkilərində yuxarıda bəhs olunan reallıqların məntiqi nəticəsi kimi, xalqımız Ümummilli Lider Heydər Əliyevə yüksək etimad göstərdi. Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməsi milli dövlətçilik tariximizin ən mühüm səhifələrindən birini təşkil edir. İnkaredilməz reallıqdır ki, məhz bundan sonra həyata keçirilən siyasi kurs dövlətimizin gerçək müstəqilliyini təmin etdi. Ona olan ümidləri doğruldan böyük dövlət xadimi Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində, ictimai-siyasi sabitliyin təmin olunması, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verilməsi, ordu quruculuğu prosesinə başlanması, Qarabağ müharibəsində atəşkəs əldə edilməsi, eləcə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlanması və digər strateji əhəmiyyətli addımların atılması Azərbaycanın tərəqqisinə xidmət edən mütərəqqi strateji inkişaf planının həyata keçirilməsinə imkan verdi. Paralel olaraq hüquqi-demokratik dövlət quruculuğuna xidmət edən tədbirlərin reallaşdırılması müasir müstəqil Azərbaycanın inkişaf yolunda əmin addımlarla irəliləməsinə xidmət etmiş oldu. Bu kontekstdə ölkədə ilk parlament seçkilərinin keçirilməsi, ümumxalq səsverməsi - referendum vasitəsilə Konstitusiyanın qəbul edilməsi, məhkəmə islahatlarının aparılması, Konstitusiya Məhkəməsinin, Ombudsman Təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar xüsusi qeyd edilməlidir. Bütün bunlar Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini şərtləndirdi.

Eyni zamanda, milli maraqlara əsaslanan, praqmatik və çoxvektorlu xarici siyasətin həyata keçirilməsi nəticəsində, Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi, müstəqil milli dövlət kimi dünya birliyinə uğurla inteqrasiya olunması Ulu Öndər Heydər Əliyevin müstəsna əhəmiyyətə malik olan tarixi xidmətləri sırasında xüsusi yer tutur. Özəlliklə də, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə əsası qoyulan praqmatik enerji strategiyasının uğurla icra olunması Azərbaycanın iqtisadi inkişafına xidmət etdi, mühüm beynəlxalq əməkdaşlıq platformaları yaradıldı. Şübhəsiz ki, 1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin müstəsna xidməti və səyləri sayəsində Bakıda dünyanın altı dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanması tarixi hadisə idi. Artıq 25 ildir ki, neft strategiyası uğurla həyata keçirilir. Bu günə qədər Azərbaycanın təşəbbüsü və liderliyi ilə çoxsaylı enerji layihələri reallaşdırılıb. 2017-ci il sentyabrın 14-də isə Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması tarixi əhəmiyyətə malikdir. Bu Sazişin imzalanması ilə böyük ehtiyatlara malik "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsində yeni mərhələ başlayıb.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həlli mühüm yer tuturdu. Başqa sözlə, münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli strateji prioritet kimi müəyyənləşdirilmişdi. Bu istiqamətdə reallıqlar, tarixi faktlar beynəlxalq ictimaiyyətin - dünya birliyinin nəzərinə çatdırıldı. Bunun nəticəsində zirvə toplantılarında Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi, Ermənistanın isə işğalçılıq siyasətinin pisləndiyi qətnamələr və bəyanatlar qəbul olunmuşdu.

Bir sözlə, Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi illər sabitlik və inkişaf dövrü kimi yadda qaldı. Bu gün əminliklə və qətiyyətlə "müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir" fikrini ifadə etməklə, müstəsna tarixi reallığın üzərinə işıq salmış oluruq. Ən əsası, Heydər Əliyevin zəngin dövlətçilik irsi əbədiyaşar sərvət kimi hər bir azərbaycanlının qürur mənbəyini təşkil edir. Bu tükənməz sərvət gələcək nəsillər üçün zəngin xəzinədir və onun öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Bu günə qədər Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən bəhs edən çoxsaylı fundamental tədqiqat əsərləri, qiymətli kitablar, dəyərli monoqrafiyalar yazılıb və bütün bunlar böyük dövlət xadiminin, dahi siyasətçinin zəngin siyasi irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından xüsusi önəm kəsb edir.

Sevindirici haldır ki, bu gün müasir müstəqil Azərbaycan Ümummilli Liderin ideyaları əsasında inkişaf edərək, öz qüdrətini daha da artırır. Ulu Öndərin layiqli varisi və alternativsiz siyasətinin davamçısı olan Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs nəticəsində Azərbaycan möhtəşəm nailiyyətlər qazanır, müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız ən yüksək zirvələrdə əzəmətlə və qürurla dalğalanır.

Çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycan inkişaf yolunda qətiyyətli addımlayır, intensiv tərəqqi bütün sahələri əhatə edir. Son 15 ildə ölkəmizdə ümumi daxili məhsul istehsalının 3,2 dəfə, qeyri-neft sahəsində ÜDM-in 2,8 dəfə, sənaye məhsulu istehsalının 2,6 dəfə, qeyri-neft sənayesinin 2,2 dəfə, kənd təsərrüfatı məhsulları istehsalının 2 dəfəyə yaxın artması, əməkhaqlarının 7,5 dəfə, pensiyaların isə 10 dəfədən çox artırılması, 2003-2018-ci illərdə işsizlik səviyyəsinin 49 faizdən 5,4 faizə, yoxsulluq səviyyəsinin isə 5 faizə enməsi sosial-iqtisadi inkişafın nümunəvi Azərbaycan modelinin parlaq göstəriciləridir.

Heç şübhəsiz, müstəqil siyasət, güclü maliyyə imkanları və sürətli iqtisadi inkişaf Azərbaycana yeni tarixi nailiyyətlər əldə edərək öz qüdrətini daha da artırmaq imkanı verir. Ən əsası, yeni zirvələr fəth edən Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirir, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edir. Xalqımız Azərbaycanın son 16 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçməsini, bu hərtərəfli və dinamik inkişafın bütün sahələri əhatə etməsini çox yüksək qiymətləndirir. Azərbaycan vətəndaşları ölkəmizin inkişafının, sabitliyin davam etməsini istəyir, iqtidarın həyata keçirdiyi siyasətə mütləq inam və etimadlarını ifadə edirlər. Yəni xalq Ümummilli Liderin layiqli davamçısı olan Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir və bu siyasətə alternativ görmür!

# Azərbaycan tibb elminin dünya səviyyəsinə çıxmasında Tamerlan Əliyevin xidmətləri əvəzsizdir

*Görkəmli alimin anadan olmasından 98 il ötür*



***Dünən Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Tamerlan Əliyevin anadan olmasının 98-ci ildönümü tamam olub. T.Əliyev 1921-ci il oktyabrın 3-də Naxçıvanın Şahtaxtı kəndində, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açıb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan tibb elminin müasir istiqamətlərinin müəyyənləşdirilməsində, dünya səviyyəsinə çıxmasında, tibbi tədqiqatlardan dəyərli nəticələr əldə edilməsində Tamerlan Əliyevin əvəzsiz xidmətləri olub. O, olduqca mənalı bir insan, alim, həkim, pedaqoq ömrü yaşayıb, bütün həyatını Azərbaycan tibb elmi və səhiyyəsinin tərəqqisinə həsr edib, çox sayda elmi-tədqiqat işləri ilə elmimizə misilsiz töhfələr verib.

Professor Tamerlan Əliyevin ölkəmiz üçün tibb sahəsində yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da əvəzsiz xidmətləri olub. Bu gün onun elmi məktəbinin yetirmələrinin adları nəinki ölkəmizdə, hətta ölkə hüdudlarından kənarda da böyük ehtiramla çəkilir.

Əziz Əliyev kimi görkəmli şəxsiyyətin ailəsində boya-başa çatan gənc Tamerlan hələ uşaqlıq çağlarından alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə alıb. 1929-cu ildə Bakıdakı 3 nömrəli ibtidai məktəbdə oxumağa başlayıb, sonralar təhsilini 176 nömrəli orta ümumtəhsil məktəbində davam etdirib. 1940-cı ildə orta məktəbi "əla" qiymətlərlə bitirən Tamerlan Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakültəsinə daxil olub. O, təhsildə və ictimai işlərdə qazandığı nailiyyətlərə görə o zaman nadir hallarda rast gəlinən yüksək təltifə - Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına layiq görülüb.

Tamerlan Əliyev əmək fəaliyyətinə 1945-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə terapiyası kafedrasında (indiki daxili xəstəliklər kafedrası) başlayıb və ömrünün sonunadək burada çalışıb. Onun çoxcəhətli elmi tədqiqatlarının əsasını Azərbaycanın kurort amillərinin müalicəvi təsiri, endokrin sistem xəstəliklərinin patogenezinin, klinikasının və müalicə üsullarının öyrənilməsi, qanın laxtalanma, əks laxtalanma və fibrinoliz sistemində patoloji şəraitdə baş verən dəyişikliklər və onların korreksiya üsulları, miokard infarktının müalicəsi və digər problemlər təşkil edib. Həkimlik fəaliyyətinə başladığı ilk illərdə Naftalan neftinin orqanizmin reaktivliyinə təsirinin öyrənilməsinə böyük əmək sərf edən Tamerlan Əliyev 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

Professor Tamerlan Əliyev apardığı elmi-tədqiqat işlərinin nəticələrinə əsasən, 1969-cu ildə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə periferik damarların vəziyyəti; metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi alıb.

1975-ci ildə Tamerlan Əliyevin şəxsi təşəbbüsü və səyi nəticəsində Fuad Əfəndiyev adına 4 nömrəli Bakı Şəhər Klinik Xəstəxanasının nəzdində 90 yerlik endokrinologiya şöbəsi yaradılıb. Həmin dövrdə Tamerlan Əliyevin təşəbbüsü ilə daxili xəstəliklər kafedrasının nəzdində Azərbaycanda ilk dəfə intensiv kardioloji yardım şöbəsi yaradılıb, reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi təşkil edilib.

Professor Tamerlan Əliyev Azərbaycanda kardioloji xidmət sisteminin təşkili sahəsinin inkişafına böyük əmək sərf edib. Novator alimin təşəbbüsü ilə keçmiş SSRİ miqyasında ilk dəfə 4 nömrəli klinik xəstəxananın nəzdində miokard infarktı və şəkərli diabeti olan xəstələrin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, həmçinin intensiv terapiyası təşkil edilib. Bunun da nəticəsində respublikada həmin xəstəliklərdən ölüm faizi azalıb.

Tamerlan Əliyevin Azərbaycan tibb tarixi salnaməsinə qızıl hərflərlə yazılmış xidmətlərindən biri də bilavasitə onun təşəbbüskarlığı, təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan Səhiyyə Nazirliyinin akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutudur.

Görkəmli alim uzun illər Səhiyyə Nazirliyinin baş terapevti, Bakı Şəhər Səhiyyə İdarəsinin baş endokrinoloqu vəzifələrini yerinə yetirib, Səhiyyə Nazirliyinin IV Baş İdarəsinin məsləhətçisi, "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətinin üzvü olub. O, həmçinin Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən terapiya ixtisası üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının sədri vəzifəsində çalışıb, bu sahə üzrə gənc elmi kadrların yetişməsinə, bacarıqlı, savadlı alimlər ordusu sıralarının artmasına qayğıkeşliklə rəhbərlik edib.

Tamerlan Əliyevin elmi məsləhətçiliyi və rəhbərliyi altında beş doktorluq və 25 namizədlik dissertasiyası yerinə yetirilib. Onun hazırladığı kadrlar Azərbaycanın hüdudlarından kənarda da uğurla fəaliyyət göstərərək müəllimlərinə başucalığı gətiriblər.

Professor 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitinin, metodik tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çox sayda elmi-kütləvi məqalənin müəllifi olub.

Professor Tamerlan Əliyevin müəllifi olduğu "Klinik-diaqnostik laborator tədqiqat üsulları", "Şəkərli diabet haqqında ətraflı məlumat", "Biokimyəvi tədqiqat üsulları", "Şəkərli diabet", "Prediabet", "Karbohidrat mübadiləsinin pozulmaları və ürəyin işemik xəstəliyi", "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi", "Endokrinologiya" və digər bu kimi elmi əsərləri indi də öz aktuallığını saxlayır, həkimlər və tələbələr tərəfindən geniş istifadə olunur.

Alimin uzun illərin təcrübəsi sayəsində əldə etdiyi praktik vərdişlər və nəzəri biliklər əsasında qələmə aldığı "Endokrinologiya" dərsliyi bu sahə üzrə Azərbaycan dilində yazılmış ilk irihəcmli, geniş əhatəli əsərdir. Alim, həmçinin tərcüməçilik işi ilə də məşğul olub. Onun "Klinik-diaqnostik laborator tədqiqat üsulları" monoqrafiyası SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə təqdim edilib və sərginin Qızıl Medalını alıb. Bu monoqrafiya Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülüb.

Tamerlan Əliyev Türkiyə, ABŞ, Fransa, İngiltərə, Almaniya, Kanada, İsveçrə, Finlandiya və başqa ölkələrdə keçirilmiş elmi toplantılarda özünün maraqlı məruzələri ilə Azərbaycanı layiqincə təmsil edib.

Görkəmli alim səhiyyə, təhsil və elm sahəsində əldə etdiyi nailiyyətlərə görə dövlət tərəfindən bir sıra fəxri ad, orden və medallara layiq görülüb.

Son dərəcə sadə, təvazökar, obyektiv, incə və həssas qəlbli, yüksək mədəni səviyyəyə malik bir insan olan Tamerlan Əliyevin gəncləri elmə həvəsləndirən mütərəqqi ideyaları diqqətlə öyrəniləcək və həyatda daim öz tətbiqini tapacaq. 1997-ci il aprelin 7-də əbədiyyətə qovuşmuş unudulmaz alimin əziz xatirəsi daim qəlbimizdə yaşayır və yad edilir.

# "Himalaya" radiosu: Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" Azərbaycanı bütün dünyaya tanıdıb




***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" Azərbaycanı bütün dünyaya tanıtdı.***

AZƏRTAC xəbər verir ki, bu fikir oktyabrın 3-də Yaponiyanın "Himalaya" radiosunda "Əsrin müqaviləsi"nin 25-ci ildönümünə həsr olunmuş xüsusi verilişdə səslənib.

Verilişin aparıcısı Kazuyasu İşida, Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü Xəlil Kələntər, AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbiri Vüqar Ağayev və "Kakusei Space Innovation" şirkətinin prezidenti Yasuhiro İşibaşi cari il sentyabrın 20-də imzalanmasının 25-ci ildönümü tamam olmuş "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən danışıblar.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində ərsəyə gələn bu müqavilə Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq, xalqımızın və dövlətimizin taleyində mühüm rol oynayıb. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında "Azəri"," Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü ilə bağlı imzalanan "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatını sürətli inkişaf roluna çıxarmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyində çox böyük rol oynayıb. Bunun ardınca sonrakı illərdə dünyanın 19 ölkəsini təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanıb. Yaponiya şirkətlərinin də həmin layihəyə qoşulduğu və onun reallaşmasında mühüm rol oynadığı xüsusi qeyd olunub. Bildirilib ki, müqavilə həm də Azərbaycanın gələcək inkişafının və dünya birliyinə inteqrasiyasının həlledici amili kimi çıxış edib.

Qeyd edilib ki, Azərbaycanı bütün dünyaya mühüm karbohidrogen ixracatçısı kimi tanıdan müqavilə böyük çətinliklərdən və manelərdən keçərək böyük dövlət xadimi Heydər Əliyevin dəmir iradəsi, qətiyyətli və ardıcıl siyasətinin nəticəsi olaraq reallaşıb. Bəzilərinin fantastika və xəyal adlandırdığı bu layihənin həyata keçirilməsində həmin dövrdə ARDNŞ-in vitse-prezidenti təyin edilən İlham Əliyevin xüsusi rol oynadığı vurğulanıb.

Bildirilib ki, müqavilənin imzalanmasından qısa müddət sonra Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşası nəticəsində Avropanın enerji təminatında yeni mərhələ başlayıb. "Əsrin müqaviləsi" nəticəsində Azərbaycan öz gələcək inkişafı üçün lazım olan maliyyə vəsaiti əldə edib.

Müqavilə ilə əldə edilən gəlirin Azərbaycan rəhbərliyi tərəfindən ölkə iqtisadiyyatına dərindən düşünülmüş və bacarıqla tətbiqi nəticəsində ölkəmiz bu gün dünyanın ən sürətlə inkişaf edən dövlətləri sırasında xüsusi yer tutur. Bu gün Azərbaycan böyük valyuta ehtiyatına malikdir. Ölkədə müasir sosial-iqtisadi və mədəni infrastruktur yaradılıb. Paytaxt Bakı ilə yanaşı, rayonların inkişafı da diqqəti cəlb edir. Xüsusi vurğulanıb ki, son 25 il ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı da, adambaşına düşən məhsul da yüz dəfələrlə artıb.

Qeyd edilib ki, Azərbaycanın qazandığı uğurlar ölkəni bütün dünyada tanıdıb. Bu gün Azərbaycan adı Yaponiyada ən çox işlənən ölkə adlarından biridir.

Radionun dinləyicilərinə Azərbaycanın müasir turizm potensialı, qədim və zəngin mədəniyyəti, özünəməxsus mətbəxi barədə də geniş məlumat verilib. Azərbaycanın yapon turistlərin ən çox ziyarət etdiyi istiqamətlərdən birinə çevrildiyi vurğulanıb.

# "Azərbaycan son illər böyük layihələr ilə Avropanın enerji təminatına və təhlükəsizliyinə öz töhfəsini verir"



Moskvada keçirilən "Rusiya Enerji Həftəsi"ndə enerji sektoruna dair aktual məsələlər müzakirə olunur. Bu barədə AZƏRTAC-a müsahibəsində Azərbaycanın Energetika naziri Pərviz Şahbazov deyib. O qeyd edib ki, Azərbaycan neft-qaz sahəsində aparılan beynəlxalq məsləhətləşmələrin, o cümlədən "OPEC plus" formatında görüşlərin fəal iştirakçısı kimi enerji həftəsi çərçivəsində neft-qaz sektorunda aktual problemlərə həsr olunmuş müzakirələrə qatılıb: "Azərbaycan son illər böyük layihələr ilə Avropanın enerji təminatına və təhlükəsizliyinə öz töhfəsini verir. Biz tədbirdə neft-qaz ixracı ətrafında aparılan müzakirələrdə iştirak edirik. Bundan əlavə, enerji transformasiyası, bərpaolunan enerji mənbələrinin tətbiqi və potensialı diqqət mərkəzindədir. Azərbaycanda da bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyev ölkənin energetika sektorunda islahatların sürətləndirilməsi haqqında Sərəncam imzalayıb. Bu sahədə qanun layihəsi hazırlanıb və onun ilin sonunadək qəbul olunacağı gözlənilir".

P.Şahbazov vurğulayıb ki, bir çox şirkətlə bu sahədə əməkdaşlıq memorandumları imzalanıb və onların tədbirdə təmsil olunan nümayəndələri ilə məsləhətləşmələr davam etdirilir.

# 1993-cü il oktyabrın 3-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi müasir tariximizin ən mühüm hadisələrindən biridir

*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadənin yap.org.az-a müsahibəsi*

***- Arif müəllim, bildiyimiz kimi, 3 oktyabr 1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Sizcə, bu hadisənin tarixi-siyasi əhəmiyyəti nədən ibarətdir?***

- Ümumiyyətlə, hər tarixi dövrün öz görkəmli şəxsiyyətləri olur. Şəxsiyyətləri zaman yetişdirir. Amma bəzən əksinə də olur. Dahi insanlar zamanın fövqünə yüksələrək, öz dövrlərini yaradırlar. Ümummilli Lider Heydər Əliyev Azərbaycan üçün belə bir şəxsiyyətdir: XX əsrin ikinci yarısının xeyli hissəsini əhatə edən dövr Onun adı ilə bağlıdır.

1969-cu ildən başlayaraq, 30 ildən çox müddət ərzində o, yalnız bir dəfə respublikanın rəhbəri kimi hakimiyyətdən kənarda olmuşdur. 1982-ci ildə Heydər Əliyev daha yüksək vəzifəyə - İttifaq hökuməti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, hakim partiyanın ali orqanı olan Siyasi Büronun üzvü seçilmişdir. Amma sonralar Heydər Əliyev 1987-ci ildə ölkənin o vaxtkı rəhbəri Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Lakin Heydər Əliyevin Azərbaycanda olub-olmamasından, yüksək vəzifədə çalışıb-çalışmamasından asılı olmayaraq, respublikanın bütün şəhərlərindən ucqar kəndlərinə kimi ağlı kəsən hər bir insan ölkənin böhranlı dövrlərində Onun zəkasına, iradəsinə və məharətinə inanıb güvənmiş, Heydər Əliyevin simasında Vətənini və həmvətənlərini sevən, lazım gəldikdə onların köməyinə gəlməyə və onlara arxa durmağa həmişə hazır olan müdrik bir ağsaqqal görmüşdür.

1991-ci ildə Azərbaycan müstəqilliyini elan etsə də, ölkə daxilində anarxiya, hökm sürürdü. Belə vəziyyət 1993-cü ilin ortalarında Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu. Azərbaycan xalqı bu təhlükələrdən yeganə xilas yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Bakıya qayıdaraq ölkə Parlamentinin Sədri seçildi. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli Lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı.

1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, genişmiqyaslı islahatlara başlandı. 1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya birliyindəki mövqeyini möhkəmləndirdi.



Hesab edirəm ki, 1993-cü il oktyabrın 3-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi müasir tariximizin ən mühüm hadisələrindən biridir.

***- Dediyiniz kimi, 1993-cü ildə Azərbaycan olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya idi və faktiki olaraq siyasi, iqtisadi böhran dərin tənəzzülə yol açmışdı. Necə oldu ki, Heydər Əliyevə qarşı çıxış edən iqtidar nümayəndələri Onun hakimiyyətə gəlməsinin zəruriliyini anladılar?***

- Tarixinin bu böhranlı məqamında xalq ümidini böyük oğlu Heydər Əliyevə bağlamışdı. Xalqın şüurunda Heydər Əliyev təkcə 1970-80-ci illərdəki quruculuq fəaliyyəti ilə deyil, həm də blokada şəraitində yaşayan Naxçıvanda gördüyü işlərlə Azərbaycanın gələcəyinə ümidlə baxmağa əsas yaradırdı. Hamı başa düşürdü ki, ölkəni bu fəlakətlərdən yalnız Heydər Əliyev xilas edə bilər və o zamankı hakimiyyət Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu. O zamankı parlamentdə hamı, o cümlədən vaxtilə Ulu Öndərimizə qarşı çıxış edənlər də Heydər Əliyevin namizədliyinə səs verməyə hazır idilər. Çünki anlayırdılar ki, Heydər Əliyev olmadan Azərbaycanı ağır vəziyyətdən xilas etmək mümkün deyil. 1993-cü ilin iyun hadisələri zamanı xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Bakıya gəldi və iyunun 15-də Ali Sovetə Sədr seçildi. Haqlı olaraq həmin gün tariximizə xalqımızın və dövlətçiliyimizin Milli Qurtuluş Günü kimi əbədi həkk olundu.

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu. Heydər Əliyevin dühası, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başı üstünü almış təhlükələr aradan qaldırıldı. Qanunsuz silahlı birləşmələr və quldur dəstələri ləğv edildi, ölkənin parçalanmaq təzahürləri dəf edildi, vətəndaş müharibəsi dayandırıldı, ordu yaradıldı. Dövlət çevrilişi cəhdlərinin, terror aktlarının qarşısı alındı. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Azərbaycanın haqq səsi dünya birliyi tərəfindən dəstəkləndi. İdarəetmə sistemi yaradıldı, insanlara öz qüvvələrinə inamı qaytarıldı. 1995-ci ildən başlayaraq iqtisadiyyatda, mədəniyyətdə, mənəviyyatda dirçəliş dövrü yaşandı. Azərbaycanın dünya birliyinə fəal inteqrasiyası başlandı. Müstəqil dövlətimizin yeni Konstitusiyası qəbul olundu. Ölkədə dövlətçilik, azərbaycançılıq ideologiyası formalaşdı. Bir sözlə, Azərbaycan inkişaf yoluna çıxdı.

***- Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi xalqımız qarşısında misilsiz xidmətlər göstərib...***

- Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır.

Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Milli ideologiyanın yaradılması da Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

***- Arif müəllim, bu gün Azərbaycan dövləti Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Bu mənada, ölkəmizin hazırkı inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?***

- Həqiqətən bu gün Heydər Əliyev siyasəti uğurla davam etdirilir. 2003-cü ildə cənab cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. Bu gün ölkəmiz dünyada böyük nüfuz sahibidir, heç kimdən asılı olmadan müstəqil siyasət həyata keçirir, dövlətimizin təhlükəsizliyi tam təmin olunub, müstəqilliyimiz Möhtərəm Prezidentimiz İlham əliyev tərəfindən bacarıqla qorunur.

Məmnunluqla qeyd edilməlidir ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və hər zaman yaşayacaq. Çünki bugünkü və gələcək inkişafımız Heydər Əliyevin qurduğu bünövrə üzərindədir, onun müəyyənləşdirdiyi inkişaf siyasəti Azərbaycan xalqının daim firavanlığına, əminamanlığına, sabitliyinə, rifahına xidmət edir və edəcək.

## Bəhruz Quliyev:
## "Azərbaycan hazırda tarixinin ən yüksək inkişaf dövrünü yaşayır"



"1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtmasından, oktyabrın 3-də isə vətəndaşların yüksək etimadı əsasında ölkə Prezidenti seçilməsindən sonra Azərbaycanda hökm sürən acınacaqlı vəziyyət aradan qaldırıldı, müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olan dövlətimiz xilas edildi. Ümummilli Lider yalnız sənəd üzərində olan müstəqilliyi de-fakto təmin etdi". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

Ulu Öndərin Azərbaycanda baş verənlərə biganə qalmadığı, xalqın tələbi ilə ölkəni xilas etmək məqsədilə yenidən hakimiyyətə qayıtdığını xatırladan B.Quliyev söyləyib ki, hələ Ümummilli Lider Heydər Əliyev 1992-ci ilin oktyabrında 91-lərin müraciətinə cavabı ölkəni mürəkkəb vəziyyətdən çıxaracaq konsepsiyası idi: "Məhz 5 bənddən ibarət konsepsiyanın həyata keçirilməsi ilə Azərbaycanın müstəqilliyinini qorumaq mümkün olardı. Konsepsiyanın bəndlərində yer alan qanunun aliliyin qorumaq, atəşkəsə nail olmaq, iqtisadi proqramların həyata keçirilməsi, xaos və anarxiyaya son qoyub qanunlara hörmət və beynəlxalq münasibətlərlə bağlı məsələlərin hər biri o dövr üçün vacib qarşıda duran əsas vəzifələr idi. Lakin bunları yerinə yetirmək üçün məharət tələb olunurdu ki, bunu həqiqi lider olan biri edə bilərdi. O dövrdə isə hakimiyyətdə belə bir qüvvə yox idi və onu "AXC-Müsavat" hakimiyyətinin rəhbərləri də yaxşı bilirdi."

Ekspert bildirib ki, həmin dövrdə bir tərəfdən separatizm meylləri, digər tərəfdən isə kriminal avtoritetlərin idarəçiliyi Azərbaycan dövlətini parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu:"Həmin dövrdə Azərbaycanı yalnız Ulu Öndər xilas edə bilərdi. Bunu təkcə xalq deyil, o dövrki hakimiyyət və hazırki müxalifət də çox yaxşı anlayırdı. O dövrdə hakimiyyətdə olan "AXC-Müsavat" cütlüyü öz canlarını kriminal avtoritetlərdən qurtarmaq üçün məcbur olaraq xalqın çağrışına qoşulub Ulu Öndər Heydər Əliyevin Bakıya gəlməsinə çalışdılar. Hər kəsə məlumdur ki, AXCP sədri Əli Kərimlinin həmin dövrdə yüksək postda təmsil olunduğu hakimiyyət Ümummilli Liderin Bakıya gəlməsi üçün Naxçıvana təyyarə göndərmişdi".

B.Quliyev qeyd edib ki, Azərbaycanın ən mürəkkəb dövründə bütün çətinlikləri öz üzərinə götürmüş Ulu Öndərin dövlətçilik ideologiyası ölkəmizin bugünkü və gələcək inkişafının əsasını təşkil edir: "Təməli Ümummilli Lider tərəfindən qoyulan siyasətin son 16 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan irəliyə doğru inamla irəliləyir. Bu illər ərzində ölkə iqtisadiyyatı güclənib, ictimai-siyasi sabitlik qorunub, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Əminliklə deyə bilərik ki, Azərbaycan hazırda öz tarixinin ən yüksək inkişaf dövrünü yaşayır".

**Nailə Məhərrəmova**

## "Hazırda Azərbaycanda buğdaya olan tələbatın 62 faizi yerli istehsal hesabına ödənilir"



Hazırda ölkədə buğdaya olan tələbatın 62 faizi yerli istehsal hesabına ödənilir. AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 3-də jurnalistlərə müsahibəsində Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə deyib. O bildirib ki, lakin hökumət bu göstərici xalqının qane olmaq istəmir və təminetmə faizini artırmaq istəyir. Bunun üçün hər il buğda istehsalının 200 min ton artırılması nəzərdə tutulur.

# 26 il öncə xalqımız böyük müdriklik nümayiş etdirib Ümummilli Lider Heydər Əliyevi Azərbaycan Prezidenti seçdi

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***- Mübariz müəllim, məlum olduğu kimi, 26 il əvvəl, oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Bu hadisənin tarixi əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik...***

- Mədəni-mənəvi dəyərlərin xalqın tərəqqi və rifaha qovuşmasında əhəmiyyətini dərk etmək və hər zaman ümumxalq mənafeyi, dövlətçilik maraqları naminə bu dəyərli xəzinədən bəhrələnmək, ona qayğı ilə yanaşmaq yalnız dahi liderlərə xas xüsusiyyətdir. Azərbaycan xalqının taleyində bu müqəddəs məramı yerinə yetirən şəxsiyyət Ulu Öndər Heydər Əliyev olub.

Sadə, zəhmətkeş azərbaycanlı ailəsində dünyaya göz açan, tükənməz fitri istedad sahibi Heydər Əliyev doğma xalqının dərdlərinə dərindən bələd olan, hələ çox gənc ikən məkrli qonşuların min bir hiyləsini öz gözləri ilə görən, mükəmməl təhsil alan, o cümlədən tarixi biliklərə dərindən yiyələnən, son dərəcə geniş dünyagörüşünə və biliklərə malik, doğma xalqını və yurdunu hədsiz məhəbbətlə sevən nadir tarixi şəxsiyyətdi. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə, müxtəlif xarakterli və səviyyəli idarəçilik sistemlərinin bütün incəliklərinə bələd olan, sovet məkanında kiçik bir respublikanın təmsilçisi olmasına baxmayaraq, dünyanın altıdabirini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan lider idi. Polad iradə sahibi, cahanın bugünkü siyasətini müəyyənləşdirən dünya liderləri içərisində seçilənsayılan, hamı tərəfindən qəbul olunan əzəmətli şəxsiyyət idi. Keçid dövrünün mürəkkəb burulğanından Azərbaycanı xilas etmək üçün Ulu Tanrının xalqımıza, Vətənimizə bəxş etdiyi Ümummilli Lider idi!

Müasir Azərbaycan tarixinin otuz ildən artıq dövründə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi illərini əhatə edən böyük bir hissəsi Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik ölkə quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, sürətli inkişafın təmin olunmasına dərin əsaslar yaratdı. Ölkəmizin yaşadığı çətin zamanlarda Ulu Öndər dövlət quruculuğu və müstəqilliyimizin möhkəmləndirilməsi kimi ümdə məsələlərlə yanaşı, milli-mənəvi həyatın inkişafına xüsusi diqqət yetirirdi.

Heydər Əliyev Ümummilli Lider missiyasında ölkəmizi etnik separatçılıq, dini zəmində parçalamaq,



mənəvi cəhətdən zəiflətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puç edərək dövlətçiliyimizi xilas etdi. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə Ulu Öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsasını yaratdı.

Tariximizdə elə şanlı günlər yaşanıb ki, onlar bir xalq kimi gələcək mövcudluğumuzu, birliyimizi, inkişafımızı, ümumilikdə müqəddəratımızı təyin etməyə qadir olub. Bu dövrlərdən biri müdrik xalqımızın qəti və sərrast tələbi ilə dünyanın böyük siyasət adamı, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı olan Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişi olub.

Ulu Öndərin hələ 1969-1982-ci illərdə Vətəninin, millətinin tərəqqisi, inkişafı, rifahı üçün gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Ulu Öndərin sovet dövründəki milli maraqlara əsaslanan düşünülmüş siyasətini və fəaliyyətini haqlı olaraq "milli dövlətçiliyin təməl əsasları" kimi dəyərləndirib: "Sovet hakimiyyəti illərində onun fəaliyyəti böyük bir təcrübə xəzinəsi, dövlət idarəçiliyi akademiyasıdır. Bu gün Azərbaycanın istifadə etdiyi iqtisadi, siyasi, elmi, hərbi, energetik, mədəni, ictimai və sosial potensial məhz həmin illərdə Heydər Əliyevin uzaqgörənliyi sayəsində yaradılmışdır. Məhz həmin illərdə xalqımızın şüurunda azərbaycançılıq ideyası həmişəlik hökm sürməyə başlamışdır. ...Bu kontekstdə Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi ölkənin gələcək müstəqillik perspektivinə hazırlığının ilkin mərhələsi kimi səciyyələndirilə bilər".

Məhz 1993-cü ilin iyununda Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluş tarixində həlledici dönüş baş verdi. Müdrik dövlət xadiminin bir neçə siyasi gedişindən sonra müstəqilliyimiz üçün ciddi təhlükə mənbəyinə çevrilən vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək planları puç oldu. Bu, Ulu Öndər Heydər Əliyevin sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda ölkənin qurtuluşu, qəhrəmanlıq tarixidir. Əgər xalqın təkidi ilə Heydər Əliyev həmin gün yenidən hakimiyyətə gəlməsəydi, bugünkü müstəqil Azərbaycanın varlığından danışmaq çətin ki mümkün olacaqdı.

1993-cü ilin oktyabr ayının 3-ü Azərbaycan Respublikasının Prezidenti postuna keçirilən seçkilərdə dahi lider Heydər Əliyev səsverməbdə iştirak edən 3 milyon 919 min 923 nəfər vətəndaşın rəğbətini qazanaraq (98.84%) böyük üstünlüklə qalib gəldi və Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin prezident seçkisi Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi oldu. Artıq müstəqil və demokratik dövlət quruculuğu tarixində yeni bir mərhələ başlayırdı. Böyük dühа, hər şeydən öncə, torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, ölkəni parçalanıb yox olmaq təhlükəsindən qurtardı, dövlətimizi qoruyub saxlamaqla azadlığımızı, müstəqilliyimizi təmin etdi. Dövlət başçısının qətiyyəti xalqda ruh yüksəkliyi yaratdı, itmiş inamını özünə qaytardı, Azərbaycanı qanlı burulğandan çıxardı, bununla da sabitlik və əmin-amanlıq yarandı.

***- Ulu Öndərimizin respublika Prezidenti kimi fəaliyyəti dövründə Azərbaycan hansı uğurlara imza atdı?***

- Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduğu 10 illik dövr ərzində öz andiçmə mərasimində səsləndirdiyi bütün məqsədlərə nail oldu: ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi vəzifələrini həyata keçirdi, dövlət aparatını möhkəmləndirdi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarını formalaşdırdı. Ulu Öndər həmçinin müstəqil dövlətin neft strategiyasını hazırladı, ölkənin əsas regional energetik sahəyə transformasiyasını reallaşdırdı, "Böyük İpək yolu" layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişdirilməsinə nail oldu. Dahi şəxsiyyət istər daxili, istərsə də xarici siyasəti elə gerçəkləşdirdi ki, Azərbaycan regional və beynəlxalq səviyyədə söz sahibi olan ölkəyə çevrildi.

Yeni xarici siyasət xətti müəyyənləşdirilərkən iqtisadi inkişafa nail olmaq üçün respublikanın beynəlxalq aləmdə nüfuzunun artırılması istiqamətində addımlar atmaq zərurətə çevrilmişdi. Belə şəraitdə ən məntiqli gediş münaqişəni dondurmaq, bununla da informasiya blokadasından xilas olub beynəlxalq aləmə inteqrasiya şəraiti formalaşdırmaq idi. Heydər Əliyev atəşkəs rejimi şəraitində iqtisadi inkişafın əsas prioritetlərini formalaşdırdı. 1994-cü ilin may ayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin gedişində iki tərəf arasında atəşkəsi nəzərdə tutan protokol imzalandı. Atəşkəs müqaviləsinin imzalanması ordu quruculuğu prosesini sürətləndirmək, ölkə daxilində sabitlik yaratmaq, münaqişənin həlli istiqamətində yeni mərhələyə daxil olmaq üçün münbit şərait yaratdı.

Ulu Öndər sosializmdən kapitalizmə keçid dövründə dövlətin qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməyi bacardı və dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla keçmiş, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan modelini yaratdı. Heydər Əliyev qısa zamanda Azərbaycana şəxsi sahibkarlığa, azad rəqabətə meydan açan, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelini tətbiq etdi. Gənc müstəqil dövləti müasir, güclü, davamlı iqtisadi inkişafa malik ölkəyə çevirmək üçün Ümummilli Lider Heydər Əliyev gələcək siyasi-iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq yeni neft strategiyasını müəyyənləşdirdi. O, həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş önəmli məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının mümkünsüzlüyünü nəzərə alaraq xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasının əhəmiyyətini gördü. XX əsrin qlobal layihələrindən biri kimi alternativ enerji mənbələri axtaran müasir dünyanın yeni geoiqtisadi xəritəsinin müəyyənləşməsinə əsaslı təsir göstərən, Heydər Əliyev dühasının, iradəsinin və müdrikliyinin məhsulu olan "Əsrin müqaviləsi" Azərbaycanın siyasi və iqtisadi cəhətdən möhkəmlənməsinə, beynəlxalq iqtisadi münasibətlər sistemində öz layiqli yerini almasına təkan verdi. Yeni neft strategiyası xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlədilməsinə cəlb edilməsini, xam neftin daşıma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli idarə edilməsini və Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi.

Ulu Öndərin xalqı qarşısında ən böyük xidmətlərindən biri və mühümü Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılması ilə yanaşı, həm də ölkəmizin dünya birliyində layiqli yer tutmasının təmin edilməsi oldu. Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas məsələlərdən biri dövlət quruculuğu prosesinin təşkil edilməsi idi ki, xalqın seçdiyi Lider bunu uğurla həyata keçirirdi. Ölkədə fikir və söz, vicdan, məlumat və digər azadlıqlar demokratik, sivilizasiyalı cəmiyyətin yaranmasına imkan verən başlıca şərtlər kimi müstəqil Azərbaycanda məhz 1993-cü ildən etibarən bərqərar olmağa başladı. Ümummilli Liderin hakimiyyətə gəlişi ilə insan hüquqlarının qorunması üçün bütün təminatlar yaradıldı. Demokratik cəmiyyət quruculuğu prosesində ən mühüm addım, şübhəsiz ki, ali hüquqi sənədin - Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi oldu. Ulu Öndər Heydər Əliyevin Konstitusiyanın hazırlanmasında, qəbul edilməsində böyük liderlik əməyi və töhfəsi danılmazdır. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artırılması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir.

Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edildi. Azərbaycan Respublikası Konstitusiyasının ən önəmli cəhətlərindən biri ondan ibarətdir ki, o, müasir dövlət quruculuğu üçün tələb olunan, demək olar ki, bütün prinsipial məqamları özündə əks etdirir. Konstitusiyanın qəbul edilməsindən sonra ölkəmizdə irimiqyaslı dəyişikliklər baş verdi: birbaşa xalq tərəfindən seçilən qanunverici orqan formalaşdı və ötən dövr ərzində Konstitusiya əsasında cəmiyyət və dövlət həyatının ən müxtəlif sahələrini əhatə edən yüzlərlə normativ-hüquqi akt qəbul edildi. Eləcə də Azərbaycan xalqının vahidliyini təcəssüm etdirən və dövlətçiliyin varisliyini təmin edən, Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət edilməsinin, məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı olan Prezident institutu formalaşdırıldı. Bundan əlavə, dövlət hakimiyyəti orqanlarının səmərəli fəaliyyətinin təşkili üçün onların təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı, Azərbaycanda yerli özünüidarəetmə institutu - bələdiyyə orqanları yaradıldı və fəaliyyətə başladı.

Ulu Öndər Heydər Əliyev rəhbərliyi altında quruculuq işlərinin sürətlə davam etdiyi dövrdə qəbul olunmuş qanunların əhəmiyyətinə

# 26 il öncə xalqımız böyük müdriklik nümayiş etdirib Ümummilli Lider Heydər Əliyevi Azərbaycan Prezidenti seçdi

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

toxunarkən belə söyləmişdir: "Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur".

***- Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi də vacib məqamlardan biri idi. Ulu Öndərimizin bu istiqamətdəki fəaliyyətini necə səciyyələndirərdiniz?***

- Azərbaycanın son onilliklər ərzində bir çox sahələrdə qazandığı uğurlar heç şübhəsiz ki, müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə birbaşa bağlıdır. Ümummilli Liderin prezident seçilməsindən sonra Azərbaycanda hər bir sahədə olduğu kimi, dini sahədə də mövcud problemlər aradan qaldırılmağa başlanıldı. Respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması məhz müdrik dövlət xadiminin möhtəşəm fəaliyyətinin təzahürüdür.

Müasir Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşması və tətbiqinin müstəqil dövlətimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə bağlı olması hamımıza məlumdur. Bu sahədə Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği təkcə tarix və müasir dövr baxımından deyil, həm də gələcəkdə proseslərin istiqamətini düzgün müəyyənləşdirmək və yönləndirmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Belə ki, XXI əsrin ilk illərindən dünyada baş verən proseslər, xüsusilə dini zəmində terrorun, radikallığın və ekstremizmin güclənməsi yeni yaranmış müstəqil dövlətlərin din sahəsində ardıcıl, effektiv və daha həssas siyasət həyata keçirmələrini zərurətə çevirdi.

Hazırkı dünyamızda beynəlxalq münasibətlər sistemindəki mövcud vəziyyət, dünyada cərəyan edən qanlı hadisələr bir daha sübut edir ki, dinə yalnız inanc, mənəviyyat və hüquq məsələsi kimi deyil, həm də dövlətin və cəmiyyətin təhlükəsizliyi və sabitliyi prizmasından yanaşmaq lazımdır. Bu mənada Heydər Əliyevin dövlət-din münasibətləri, milli-mənəvi, o cümlədən dini dəyərlərin qorunması və təbliği, eləcə də tarixi-dini abidələrin bərpası, tolerantlığın və dinlərarası dialoqun təşviq edilməsi sahəsində zəngin irsinin öyrənilməsi və düzgün təbliği Azərbaycanla yanaşı, digər ölkələr üçün də olduqca faydalıdır. Bununla yanaşı, dünyəvi dövlətdə dinin yeri, eləcə də qloballaşma prosesinin getdikcə dərinləşdiyi hazırkı dövrdə milli adət-ənənələrin yaşadılması və mənəvi irsin mühafizəsi çağdaş dünyanın ən aktual məsələlərindən biri hesab olunmaqdadır. Zaman keçdikcə sürətlənən qloballaşma prosesi sanki xalqların milli xüsusiyyətlərini və özünəməxsusluğunu əridərək ümumi milli dəyərlərə malik vahid dünya cəmiyyəti formalaşdırır. Təbii ki, bu, təkcə xalqların deyil, milli dövlətlərin də gələcəyi ilə bağlı ciddi suallar doğurur. Azərbaycan xalqı üçün bu sualların cavabları Heydər Əliyevin zəngin elmi-nəzəri və əməli irsində axtarılmalıdır.

***- Mübariz müəllim, Ümummilli Liderimiz Heydər Əliyevin siyasətində tolerantlıq, multikulturalizm ideyalarının həyata keçirilməsi istiqamətində görülən işlər haqqında nə deyə bilərsiniz?***

- Ulu Öndərin həyata keçirdiyi siyasətdə tolerantlıq hər zaman diqqət mərkəzində olub. Həyat göstərir ki, tolerantlıq Azərbaycan xalqı üçün hüquqi bir mexanizm deyil, o, eyni zamanda mənəvi borcdur. Məhz bu siyasət xalqların yaxınlaşmasına, dini dözümlülük ənənələrinin qorunub saxlanılmasına çox böyük töhfə vermişdir. Bütün konfessiyalara eyni səviyyədə münasibət, onların ibadətgahlarını fərq qoymadan ziyarət etmək, müxtəlif dinlərin və xalqların nümayəndələri ilə görüşlər Heydər Əliyevin tolerantlığa verdiyi önəmi bir daha göstərir. Azərbaycanda bütün dini mərasimlər zamanı müxtəlif konfessiyaların nümayəndələrini bir arada görmək ənənəsi də xalqın dahi liderinin zamanında qoyulmuşdur. Heydər Əliyev cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu deyirdi. O, Azərbaycan xalqına xas olan insanpərvərlik və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətləri əsas gətirərək ölkəmizdə milli-irqi ayrı-seçkilik, dini dözümlülük zəminində humanizmə zidd halların baş verməsini imkansız sayırdı.

Ulu Öndər 1993-cü ilin 10 oktyabrında andiçmə mərasimindəki nitqində demişdir: "Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəsilə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda islam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir. Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır. Bu gün bizim islam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır..."

Ulu Öndərin müəllifi olduğu və öz andında səsləndirdiyi tolerant, multikultural ideyalar, bütün dinlərin nümayəndələrinə eyni münasibət göstərilməsi və bərabər imkanlar yaradılması bu gün ölkə siyasətinin mühüm istiqamətlərindən birini təşkil etməklə yanaşı, dövlətin bu sahədə gələcək strategiyasının da ayrılmaz tərkib hissəsinə çevrilib.

Ümummilli Liderin dini etiqad azadlığının təmin olunması, müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi, inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini təhsil ilə bağlı məsələlərin həll edilməsi, həmçinin vətəndaşların vicdan azadlığının təmin edilməsi, dini ənənələrin, dözümlülük və tolerantlıq münasibətlərinin qorunması, dini mühitdəki radikal elementlərin qarşısının alınması isiqamətlərində atdığı ən mühüm addımlardan biri, heç şübhəsiz ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə 2001-ci ilin 21 iyununda imzaladığı fərman olmuşdur.

***- Ölkəmiz tolerantlıq və multikulturalizm məkanı olmaqla yanaşı bu dəyərlərin təbliğinə xidmət edən tədbirlərə ev sahibliyi edir...***

-Bu gün tolerantlıq və multikulturalizm Azərbaycanın dövlət siyasətinə və Azərbaycan xalqının həyat tərzinə çevrilib. Heç şübhəsiz ki, bu ənənələrin inkişafı və təbliğində ən böyük layihələri Heydər Əliyev Fondu reallaşdırır. Heydər Əliyev Fondunun gördüyü işlər - ibadət evlərinin təmiri və yenidən qurulması, Azərbaycanın tolerant və multikultural dəyərlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirilən tədbirlər müstəsna əhəmiyyətə malikdir. Vətənimizdə və digər ölkələrdə bəşər övladı üçün nümunə kimi qəbul ediləcək sülh və barışıq məzmunlu, xalqlar və dinlər arasında fərq qoymamaq məqsədilə reallaşdırılan layihələr davamlı xarakter alıb. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi barədə qərar verilərkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın beynəlxalq təşkilatlardakı yüksək nüfuzu və çoxşaxəli səmərəli fəaliyyəti həlledici rola malik olur. Azərbaycan Respublikasında multikulturalizmin özünəməxsus, nümunəvi modelinin formalaşdığını bütün dünya birmənalı olaraq təsdiqləyir. Heydər Əliyev Fondu beynəlxalq ictimaiyyətə bu həqiqətlərin çatdırılması istiqamətində çoxsaylı təşəbbüslərlə çıxış edir, layihələr reallaşdırır.

Bu istiqamətdə həyata keçirilən ən mühüm tədbirlərdən biri də bu ilin may ayının 2-də Azərbaycan hökumətinin təşkilatçılığı, UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu olub. Tədbirin açılış mərasimində dövlət başçımız cənab İlham Əliyevin söylədiyi nitq insanlar arasında həmrəylik yaratmaqda, müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun vacibliyini diqqətə çatdırıb: "...Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur. Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir. Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir. Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar..."

Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət-din münasibətlərinin effektiv tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Heydər Əliyevin əsasını qoyduğu sağlam bünövrə, ikincisi, həmin sağlam bünövrə üzərində Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin qurduğu uğurlu strategiya. Azərbaycanın bütün sahələrdə həyata keçirdiyi siyasətin mahiyyətini, istiqamətini, perspektivini tam və dolğun dərk etmək üçün Ulu Öndərin siyasi irsinin daha dərindən öyrənilməsi olduqca zəruri və vacibdir.

Bir həqiqət var ki, bunu xalqımız gözəl dərk edir. Hazırda tərəqqi dövrünü yaşayan bütün millətləri, ölkələri keçid dövrünün çətin labirintlərindən görkəmli şəxsiyyətlər çıxarmışlar. Heydər Əliyev də bu qəbildən olan, Azərbaycanın taleyinə bəxş olunan dahi Liderdir. Çağdaş Azərbaycan bu gün - XXI yüzilliyin başlanğıcında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan-uğura qovuşur.

Zamanın ən qanlı burulğanı içərisində çabaladığımız günlər arxada qalıb, tarixə çevrilib! Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas edilib! Ölkəmiz özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir. Bütün bunlar üçün hər bir vətən övladı, qədirbilən xalqımızın nümayəndələri dahi xilaskara - Heydər Əliyevə borcludur!

# Qarayaxma kampaniyası aparan dairələr ifşa edilməlidirlər

*Gəncədə YAP Gəncə şəhər, Kəlbəcər və Xocalı rayon təşkilatlarının ərazi ilk təşkilatlarının sədrləri və partiya fəalları ilə görüş keçirilib*




***Gəncə şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası Gəncə şəhər, Kəlbəcər və Xocalı rayon təşkilatlarının ərazi ilk partiya təşkilatlarının sədrləri və partiya fəallarının iştirakı ilə müşavirə keçirilib.***



Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Həsənov, Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Xocalı rayon icra hakimiyyətinin başçısı Şahmar Usubov, Kəlbəcər rayon icra hakimiyyətinin başçısı Aqil Məmmədov, millət vəkilləri Naqif Həmzəyev, Pərvin Kərimzadə, Elman Məmmədov, Musa Quliyev, Nazirlər Kabinetinin məsul işçisi Ramin Talıblı, YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov və ictimaiyyət nümayəndələri iştirak ediblər.




Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidənin önünə tər gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra tədbir iştirakçıları Ulu Öndərin keçdiyi şərəfli həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən Heydər Əliyev Muzeyi ilə yaxından tanış olublar.




Müşavirə Heydər Əliyev Mərkəzinin konfrans zalında öz işinə başlayıb. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Həsənov çıxış edərək, müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu rəhbər tutan Prezident İlham Əliyevin yorulmadan dövlətçiliyin möhkəmləndirilməsi, xalqın firavan həyat şəraitinin inkişaf etdirilməsi naminə daim milli və dövləti maraqlarından çıxış etdiyini qeyd edib: “Uğurlu idarəetmə nəticəsində Azərbaycan sabit şəraitdə sürətli inkişafını davam etdirir”.

Yeni Azərbaycan Partiyası sıralarında 750 minə yaxın Azərbaycan vətəndaşı birləşdiyini diqqətə çatdıran Əli Həsənov qarşıda duran məqsədin 27 il əvvəl yaradılan partiyanın şəhər və rayon təşkilatlarının ilk təşkilatlarının fəaliyyətinin daha səmərəli olmasını təmin etmək olduğunu qeyd edib.

Azərbaycan Respublikası Baş nazirinin müavini ölkənin inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğuna toxunaraq, sosial şəbəkələrdə ölkəmizə qarşı qarayaxma kampaniyasının aparıldığını vurğulayıb. Əli Həsənov bildirib ki, Yeni Azərbaycan Partiyasının üzvləri ölkəmizin qazandığı nailiyyətləri geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməli, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin və radikal müxalifətin əsl niyyətlərini cəmiyyətimizdə ifşa etməlidirlər.

Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında Ulu Öndər Heydər Əliyevin “Yeni Azərbaycan Partiyası - dünənin, bu günün və gələcəyin partiyasıdır” fikrini xatırladaraq, qeyd edib ki, fəaliyyət göstərdiyi 27 il ərzində vətəndaş həmrəyliyinin və sabitliyin təmin olunmasında müstəsna xidmətləri nəticəsində partiya Azərbaycan dövlətinin müstəqilliyinin qarantına çevrilib.

Niyazi Bayramov vurğulayıb ki, bu gün müstəqil Azərbaycanın etibarlı gələcəyinin möhkəm, sarsılmaz əsaslarının arxasında Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü siyasəti dayanır.

YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxışında Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın bu gün qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi vəzifələri qoyduğunu bildirib. Həmçinin, Naqif Həmzəyev YAP-ın sınanmış qabaqcıl qollarından birinə çevrilən YAP Gəncə şəhər təşkilatının da böyük inkişaf yolu keçdiyini qeyd edib.

Tədbirdə, həmçinin YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev, YAP Kəlbəcər rayon təşkilatının aparat rəhbəri Qənaət Əsgərov çıxış ediblər.

Sonda YAP sıralarına yeni qoşulmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

***Rövşən RƏSULOV***

## DSX rəisi Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətini yoxlayıb



Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev oktyabrın 2-3-də Xidmətin Sərhəd Qoşunlarının “Qazax” əlahiddə sərhəd diviziyasının Ermənistanla dövlət sərhədində yerləşən sərhəd döyüş məntəqələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb.



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlər xidməti ərazidəki əməliyyat şəraiti, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən mütəmadi olaraq atəşkəs rejiminin pozulması, təxribat-diversiya cəhdləri və bununla əlaqədar görülən tədbirlər barədə vəzifəli şəxslərin məruzələri dinlənilib. Dövlət sərhədinin müdafiəsi və mühafizəsi üzrə xidməti fəaliyyətin təkmilləşdirilməsi, düşmənin təxribatlarının qarşısının qətiyyətlə alınması, şəxsi heyətin təhlükəsizliyinin daha da gücləndirilməsi barədə tapşırıqlar verilib.

## Ermənistanın siyasəti bölgədə sülh və təhlükəsizliyə başlıca maneədir



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva oktyabrın 2-də Azərbaycanın Qazax rayonunda Ermənistan silahlı qüvvələrinin məqsədyönlü şəkildə açdığı atəş nəticəsində azərbaycanlı mülki şəxsin öldürülməsi ilə bağlı KİV-ə açıqlama verib. SİA xəbər verir ki, Leyla Abdullayeva Ermənistan silahlı qüvvələrinin növbəti təxribata əl atdıqlarını, Azərbaycan-Ermənistan sərhədi yaxınlığında Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində təminat yollarının salınması ilə məşğul olan ekskavatorumuzu atəşə tutduqlarını bildirib. İnsident nəticəsində ekskavatorun sürücüsü, mülki şəxs Səfərəli Abışov həlak olub.

“Ümumiyyətlə, xatırlatmaq istərdik ki, münaqişə ərzində azərbaycanlı mülki şəxslərin məqsədyönlü şəkildə qətlə yetirilməsi Ermənistan silahlı qüvvələrinin fəaliyyətinin əsas mahiyyətini təşkil edib. 1992-ci ildə Xocalıda baş vermiş qanlı qətliam, eləcə də Azərbaycan və Ermənistan dövlət sərhədi və cəbhə xəttinə yaxın ərazilərdə yaşayan azyaşlı uşaqların öldürülməsi halları bunun bariz sübutudur. Son zamanlar tendensiya halını almış və Ermənistan rəhbərliyinin məsuliyyətsiz bəyanatları ilə müşayiət olunan atəşkəsin pozulması halları onu təsdiq edir ki, təəssüf ki, işğalçı ölkənin bəyanat və əməlləri münaqişənin sülh yolu ilə həlli maraqlarına kökündən ziddir. Bu hərəkətlər heç bir halda, ATƏT-in Minsk qrupunun həmsədrlərinin gərginliyin azaldılması və münaqişənin sülh yolu ilə həlli prosesinin irəli aparılması və substantiv danışıqlar üçün münasib şəraitin yaradılmasına dair birmənalı çağırışının əks olunduğu 25 sentyabr 2019-cu il tarixli bəyanatının ruhu və mahiyyətinə uyğun gəlmir. Biz Ermənistan tərəfinin növbəti mənfur hərəkətini qətiyyətlə pisləyirik və bir daha xatırladırıq ki, məhz Ermənistan tərəfinin gərginliyin artırılmasına yönəlmiş siyasəti sülh prosesində irəliləyişin əldə olunmasına və bölgədə sülh və təhlükəsizliyə başlıca maneə təşkil edir”, - deyə XİN rəsmisi bildirib.



# Gənclərin hərtərəfli inkişafı təmin olunur

*Dövlət başçısının Sərəncamı ilə Gənclər Fonduna 4 milyon manat ayrılıb*

**Dövlətin həyata keçirdiyi hərtərəfli siyasətin ən vacib komponentlərindən birini də dövlət-gənclər siyasəti təşkil edir. Gənclər siyasəti, əsasən, gənclərin intellektual səviyyəsinin artırılmasını, gənclərin elmə, təhsilə yiyələnmələrinə nail olunmasını, onların azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin mənimsənilməsini və digər məsələləri özündə ehtiva edir.**

Azərbaycan Prezidenti İlham Əliyevin, ötən 16 il ərizində, həyata keçirdiyi gənclər siyasətinə nəzər salarkən, bunun ən vacib strateji siyasətlərdən biri olduğu diqqətdən yayınmır. Bu gün ölkəmizdə gənclər siyasətini həyata keçirmək üçün hüquqi baza mövcuddur. Dövlət başçısının gənclərlə bağlı sərəncamları, həyata keçirilən dövlət proqramları onların hərtərəfli inkişafına yönəlib. Gənclərin hərtərəfli inkişafı, təşkilatlanması, dövlət idarəetməsində və seçkili orqanlarda təmsilçiliyi, gənclərin sosial problemlərinin həllində misilsiz işlər həyata keçirilib. “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı haqqında” Sərəncamı əsasında gənclər siyasəti daha da inkişaf etdirilərək, gənclərin müxtəlif sahələrdə fəal iştirakına şərait yaratmış oldu. Gənclərə olan diqqət və gənclər siyasətinin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti bir addım oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının təsdiq edilməsi haqqında Sərəncamı Azərbaycan dövlət- gənclər siyasətinin gələcək təminatının daha bir təzahürüdür. Bu sənədlər fundamental strategiya Azərbaycan gəncliyinə olan böyük etimadın və onlardan olan gözləntinin əyani göstəricisidir.

Bu günlərdə isə, dövlət başçısının Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncamı gənclərə olan diqqətin davamlı xarakter daşıdığının əyani təsdiqidir. Sərəncama əsasən, ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması və fəaliyyətinin təmin edilməsi məqsədilə, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər Fonduna 4 milyon manat ayrılıb. Bu, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət-gənclər siyasətinin tələblərinə uyğun tərzdə hərtərəfli inkişafının təmin olunması, habelə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədi daşıyır.

Bu gün gənclərimiz mədəniyyət, incəsənət, idman, elm, təhsil, texnologiya və başqa sahələrdə öz istedadlarını və qazandıqları uğurları layiqincə nümayiş etdirirlər. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin məşğulluğunun təmin edilməsinə və sosial məsələlərinin həllinə, gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə daim diqqət və qayğı göstərilir.

Qeyd etdiyimiz kimi, indiyə qədər gənclər siyasətinə dair bir sıra proqramlar qəbul olunmuşdur. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlamış, onların xaricdə təhsilinə, yardıcı və elmi fəaliyyətlə məşğul olan gənclərə yanaşı, kütləvi idmanı təbliğ etməklə, sağlam gəncliyin formalaşmasına töhfə verməklə, çox geniş spektri əhatə edib. Bu gün gənclərin hərtərəfli inkişafından söhbət gedirsə, ilk növbədə, milli ideologiyanın təbliği məsələsinə diqqət yetirilir. Azərbaycançılıq ideologiyasının təbliği yerlərdə həyata keçirilir. Keçirilən tədbirlər, dəyirmi masalar və görüşlərdə onlara vətənpərvərlik ruhu aşılanır, azərbaycançılıq ideologiyası, dövlətimizin həyata keçirdiyi hərtərəfli siyasət aşılanır.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Bakı Avtovağzalı oktyabrın 22-dən qış rejiminə keçir




Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK) oktyabrın 22-dən qış rejiminə keçir. Bu barədə AZƏRTAC-a ekskluziv açıqlamasında BBAK-ın mətbuat xidmətinin rəhbəri Pərvin Məmmədova deyib. “Oktyabrın 22-dək qış rejiminə keçidlə bağlı hazırlıqlar yekunlaşacaq. Təbii ki, mövsümdən asılı olmayaraq sürücülərin təlimatlandırılması, avtobusların saz vəziyyətdə olması hər zaman diqqətdə saxlanılır. Qış mövsümündə isə məsuliyyət daha da artdığı üçün bu istiqamətdə mühüm tədbirlər görülür”, - deyə P.Məmmədova vurğulayıb. O bildirib ki, qış rejiminə hazırlıqla bağlı əsas məsələlərdən biri də avtobusların təkərlərinin mövsümə uyğun vəziyyətdə olmasıdır. Həmçinin sərnişinlərin rahatlığı üçün avtobusun salonunda isitmə sisteminin də saz vəziyyətdə olması vacib amildir. Hazırda bununla bağlı işlər görülməkdədir.

# YAP növbəti seçki qələbəsinə doğru

*Partiyanın rayon təşkilatları dekabrda keçiriləcək bələdiyyə seçkilərində də zəfər əldə ediləcəyini inamla vurğulayırlar*




**Dekabrda keçiriləcək bələdiyyə seçkilərilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası rayon təşkilatları seçkiyə hazırlıq üzrə uğurlu işlərini davam etdirirlər.**

Bizimlə söhbət edən YAP rayon təşkilatı sədrləri bələdiyyələrin respublikamızın həyatında oynadığı mühüm roldan danışıblar. Qeyd edilib ki, bələdiyyə institutu Azərbaycanda yaranmış gənc strukturdur və əlbəttə ki, demokratikləşən Azərbaycanda bələdiyyələr bu tendensiyanın bir hissəsi kimi, ölkənin tərəqqisinə öz töhfələrini verməlidir. Belə ki, son illər ərzində, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində maddi-texniki bazanın gücləndirilməsi ilə yanaşı, qanunvericilik bazası da möhkəmləndirilib.

## YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev:



- Sirr deyil ki, bütün parametrlərə görə, Azərbaycanda alternativsiz siyasi qüvvəyə çevrilən Yeni Azərbaycan Partiyası seçki təbliğatına hər zaman çox ciddi yanaşır, seçicilərlə fəal iş aparır, geniş ictimaiyyətin maraqlarının müdafiəsinə yönəlmiş çoxsaylı mütərəqqi sosial-siyasi təşəbbüslərlə çıxış edir. Yeni Azərbaycan Partiyası dövlətin, cəmiyyətin, geniş ictimaiyyətin və eləcə də, əhalinin bütün təbəqələrinin maraqlarını tam nəzərə alır. Hazırda YAP Azərbaycanın siyasi səhnəsində kifayət qədər yekcins, monolit, alternativsiz siyasi qüvvə sayılır. Belə şəraitdə siyasi cəhətdən yetkin, ideoloji baxımdan mükəmməl, intellektual baxımından hazırlıqlı, mütəşəkkillik baxımından təkmil, monolitlik baxımından möhkəm və vahid lider ətrafında birləşmiş güclü siyasi təşkilat - Yeni Azərbaycan Partiyasının bütün seçkilərdə böyük, uğurlu və inamlı qələbəsi zərurətdən doğan təbii nəticə kimi özünü göstərir.

Təbii ki, namizədlərimiz də xalqın içindən seçilənlərdir və onların hər biri, söz yox ki, rayonun strukturuna, ərazisinə yaxşı bələddirlər. Bu baxımdan, sözügedən amil də, çox əhəmiyyətli hesab olunmalıdır. Sakinlərimizin sosial və digər problemlərinin həllində fəaliyyət göstərəcək bələdiyyə üzvlərimiz bir daha uğurlu işləri ilə sübut edəcəklər ki, onlar YAP-ın təmsilçisi olaraq, daim xalqın və dövlətin inkişafı naminə əzmlə çalışırlar. Ona görə də, YAP-ın bələdiyyə seçkilərində iştirak edəcək hər bir namizədinə uğurlar və müvəffəqiyyətlər arzu edirəm.

## YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev:



- Bildiyimiz kimi, bələdiyyələr demokratik bir təsisat kimi vətəndaş cəmiyyətinin bir formasıdır. Azərbaycanın demokratiya yolunda irəliləyən bir dövlət olduğunu nəzərə alsaq, müstəqil özünüidarəetmə strukturunun - bələdiyyələrin fəaliyyəti mütləq vacibdir. Onu da, vurğulamaq lazımdır ki, ölkəmizdə bələdiyyələrin fəaliyyəti üçün münbit şərait var. Son dövrlərdə bələdiyyələrin fəaliyyətində daha çox canlanma müşahidə olunur. Bu, onunla əlaqədardır ki, bələdiyyə institutlarının təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün bələdiyyələr ölkəmizin inkişafı prosesində, vətəndaşların sosial rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərdə və sosial layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bütün seçkilərdə olduğu kimi, bu seçkilərdə də partiyamızın fəaliyyətini düzgün qiymətləndirən Masallı sakinləri, bu dəfə düzgün seçim edəcəklər. Hər dəfə olduğu kimi, bizim seçicilər bu dəfə də yüksək mütəşəkkillik göstərərək, Yeni Azərbaycan Partiyasının namizədlərinə yekdilliklə səs verəcəklər. Qələbə əldə etmək üçün isə, seçkilərə ciddi hazırlaşmaq lazımdır. YAP Masallı rayon təşkilatı da seçki qanunvericiliyinə uyğun olaraq, bütün seçkilərdə olduğu kimi, qarşıdakı növbəti bələdiyyə seçkilərinə də yüksək səviyyədə hazırlaşır. Rayon təşkilatı partiyanın Mərkəzi Aparatının müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, tərtib olunmuş plan üzrə işlərini davam etdirir. Ən əsası isə, təşkilatımızın minlərlə üzvü, əvvəlki seçkilərdə olduğu kimi bu seçki proseslərində də böyük fəallıq göstərəcəklər. Artıq bu da, bir sübutdur ki, ölkəmizdə bələdiyyələr sistemi formalaşıb və bu formalaşma təbii ki, kənd və qəsəbələrimizin və şəhərlərimizin daha da inkişaf etməsinə, sosial şəraitin daha da tərəqqi etməsinə münbit şərait yaradacaq. Bu baxımdan, dekabrda keçiriləcək bələdiyyə seçkilərində iştirak edəcək namizədlərə bəri başdan uğurlar arzu edirəm.

**R.HÜSEYNOVA**

# Ölkəmizdə turistlərin istirahətinin tam təminatı üçün lazımi şərait mövcuddur

*Bu gün Azərbaycan reallıqları beynəlxalq miqyasda nüfuz qazanmış mətbu orqanların səhifələrində öz təsdiqini tapır*



**Azərbaycanın dünyanın 11 iqlim qurşağından 9-na malik olması, dağı, meşəsi, dənizi, çayı, ecazkar təbiəti və külli miqdarda dərman bitkiləri, geniş sahələri, eləcə də, dövlət tərəfindən ayrılan diqqət turizm sahəsinin inkişafında mühüm rol oynayan amillərdir. Azərbaycan turizmi müstəqil Azərbaycan dövlətinin yaranması ilə paralel olaraq, inkişafdadır.**

Belə ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ənənənin nəticəsi kimi dövlətin müəyyən etdiyi qərarlar onun davamlı inkişafına səbəb olub. Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun, davamı olaraq, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət, ölkənin bütün sahələrinin inkişafında olduğu kimi, bu sektorun da inkişafında özünü büruzə verir. Turizm sektorunun inkişafı məqsədi ölkəmizdə dünyanın ən müasir turizm obyektləri, mehmanxanalar, müalicə mərkəzləri, istirahət mərkəzləri yaradılıb və bu, davam etməkdədir. Bütün bunlar ölkənin mənzərəsinə yeni bir ab-hava gətirir. Bu müasirlik turizm bazarının artmasına da təsirini göstərir. Ölkəmizə səfər edən turistlərin istirahətinin tam təminatı üçün lazımi şərait var. Azərbaycanın təbiəti, mövcud olan atmosfer ölkəmizin turizm potensialının dünyanın nüfuzlu dövlətlərinin diqqətində saxlayıb. Bu gün beynəlxalq miqyasda nüfuz qazanmış mətbu orqanlarının səhifələrində Azərbaycan reallıqları ilə bağlı dərc olunan məqalələrdə bu fikir öz təsdiqini tapır.

Azərbaycanın turizm imkanları və mədəniyyəti haqqında dərc olunan məqalələrdə ölkəmizdə, eləcə də, küləklər şəhəri adlanan Bakıda müxtəlif tarixi dövrlərdə tikilən binaların, İçərişəhər və Şirvanşahlar Sarayı kompleksinin özünəməxsusluğunun qorunub- saxlanılması, hökumətin milli irsin qorunması naminə muzeylərin yaradılması və bərpası istiqamətində gördüyü işlər təqdirəlayiqdir.

Bu günlərdə isə, Almaniyanın "Eberhardt" turizm şirkətinin internet səhifəsində Almaniyanın Drezden, Leypsiq və Berlin şəhərlərində yaşayan almanlardan ibarət on doqquz nəfərlik turist qrupunun bu yaxınlarda Azərbaycana baş tutmuş səfərinə dair məlumat yerləşdirilib. Məlumatda Almaniyanın Frankfurt şəhərindən Bakıya gələn turistlərin, ilk növbədə, Heydər Əliyev Beynəlxalq Hava Limanının müasirliyinə, arxitekturasına heyran olduqları bildirilir. Səfərin ölkənin paytaxtı Bakı şəhəri ilə tanışlıqla başladığı, şəhərin son illərdə sürətlə inkişaf etdiyi və bu inkişafda neftin böyük rolunun olduğu vurğulanır. 1870-1914-cü illərdə Bakı şəhərindəki neft bumu zamanı varlanan dövrün neft milyarderlərinin villaları təsvir olunur, Bakı şəhərindəki Filarmoniya, Opera və Kukla teatrlarından, Xalça Muzeyindən söz açılır. 2000-ci ildən UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilən İçərişəhər haqqında məlumat verilir. İçərişəhəri ziyarət edən qrupun Şirvanşahlar Sarayı, Karvansaray və Qız Qalasında olduğu diqqətə çatdırılır. Qız Qalasının üzərindən şəhəri seyr etdikləri, şəhərdəki müasir tikililərlə şəhərin qədim hissəsi arasındakı kontrastın turistləri heyran etdiyi vurğulanır.

Qrup üzvləri Azərbaycanın bölgələrinə də üz tutmuş, Şamaxı, Qəbələ şəhərinə və Lahıc kəndinə də səfər ediblər. Şamaxıda turistlər Diribaba Türbəsini ziyarət ediblər. Materialda vaxtilə Azərbaycanın paytaxtı olmuş Şamaxı şəhərinin zəlzələ nəticəsində dağıldığı, buranın qədim abidələrlə zəngin olduğu, şəhərdə min ildən artıq tarixi olan Cümə məscidinin yerləşdiyi diqqətə çatdırılır. Qəbələ şəhərinə yollanan turistlər burada arxeoloji muzeyə baş çəkmiş və qazıntıların aparıldığı yerlərdə olmuşlar. Rayonun ərazisində tarix, mədəniyyət və memarlıq abidələri çoxdur. Bum kəndindəki məscid, Əmili kəndindəki Alban məbədi, Bayramkoxa kəndindəki Ustacan Qülləsi, Nic kəndindəki Hacı Qərib məscidi və Çotari Alban kilsəsi, Həmzəlli kəndindəki Şıxbaba Piri və Komrad dağının zirvəsindəki Komrad Piri bu rayonun tarixi baxımından, qədim sayılan məkanlarıdır. Təbii ki, dağlıq ərazidə yerləşən Qəbələnin sıx meşələri, gözəl mənzərəli yerləri, sərin bulaqları, qədim tarixi abidələri, müasir turizm obyektləri, gur sulu dağ çayları və səfalı yaylaqları turistlərin yüksək marağına səbəb olmaya bilməz.

Qrup Şəkidə olarkən Kiş kəndindəki X-XII əsrlərə aid olan kilsəyə baş çəkib və kilsə "Qafqaz kilsələrinin anası" kimi dəyərləndirilib. Ən maraqlısı isə, səfərlər sırasında qrupun 200 il öncə, Azərbaycana köç edərək, burada özlərinə məskən salmış almanların yaşadığı Helenendorfa, indiki Göygölə səfəri olub. İlk növbədə, burada yaşamış almanların qəbirlərini ziyarət edən turistlərin şəhərdəki alman evangelik kilsəsinə baş çəkdikləri, buradakı muzeylə tanış olduqları, şəhərdə yaşamış sonuncu alman - Viktor Klaynın ev-muzeyində olduqları diqqətə çatdırılır.

*Zümrüd BAYRAMOVA*

# Erməni terrorizmi bir daha AŞ PA-da ifşa olundu




Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin üzvü Sahibə Qafarova qurumun payız sessiyası çərçivəsində "Terror qurbanlarının müdafiəsi və dəstəklənməsi" mövzusunda məruzənin müzakirələri zamanı Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktları ilə bağlı çıxış edib.

SİA-nın məlumatına görə, S.Qafarova bildirib ki, Ermənistan beynəlxalq təşkilatların qətnamələrinə və beynəlxalq çağırışlara məhəl qoymayaraq sülh danışıqlarını pozmaqda davam edir və işğalçılıq siyasətindən əl çəkmir.

S.Qafarova diqqətə çatdırıb ki, Azərbaycan XX əsrin əvvəllərindən qonşu Ermənistanın terror hücumlarına məruz qalıb: "Hələ ötən əsrin əvvəllərində - 1905-1907 və 1918-1920-ci illərdə ermənilər azərbaycanlılara qarşı kütləvi terror aktları həyata keçiriblər. Həmin hadisələrdə erməni terrorçuları qocaları, qadınları və uşaqları xüsusi amansızlıqla qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Azərbaycan yenidən erməni terrorunun əsas hədəfinə çevrilib. Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü ölkəmizin ərazisinin 20 faizinin işğalı və minlərlə insanın, o cümlədən qadın və uşaqların öldürülməsi, 1 milyondan çox insanın doğma torpaqlarını və evlərini tərk etmək məcburiyyətində qalması ilə nəticələnib".

Deputat əlavə edib ki, BMT, Avropa Parlamenti, ATƏT və digər beynəlxalq təşkilatlar münaqişənin ədalətli həlli və Azərbaycanın ərazi bütövlüyünün qorunması ilə bağlı bir sıra qətnamələr qəbul edib: "Həmin sənədlərdə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı və Ermənistanın etnik təmizləmə siyasəti pislənilir, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ancaq Ermənistan bu qətnamələrə məhəl qoymayıb və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunması istiqamətində heç bir iş görməyib.

Ermənistanın baş naziri Nikol Paşinyanın öz ölkəsində, habelə Azərbaycanın işğal olunmuş torpaqlarında populist çıxışı, "Qarabağ Ermənistanın bir hissəsidir" kimi absurd sözləri və BMT-də son çıxışı aydın şəkildə göstərir ki, Ermənistan beynəlxalq təşkilatların qətnamələrinə və beynəlxalq çağırışlara məhəl qoymayaraq sülh danışıqlarını pozmaqda davam edir və işğalçılıq siyasətindən əl çəkmir".

Sahibə Qafarova qeyd edib ki, belə çıxışlar yalnız terror qurbanlarının sayını artıracaq, azaltmayacaqdır. "Bir daha vurğulayıram ki, Qarabağ heç vaxt Ermənistanın ərazisi olmayıb və olmayacaq. Bu, Azərbaycanın tarixi ərazisidir və ərazisi olaraq da qalacaq. Erməni terroru qurbanlarının Azərbaycandakı problemlərinin davamlı həllinə yalnız erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, qaçqın və məcburi köçkünlərin evlərinə qayıtması ilə nail olmaq mümkündür".

# "Kremldəkilər Dağlıq Qarabağı Ermənistanın bir hissəsi kimi görmürlər"



"Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Nikol Paşinyanın "Qarabağ Ermənistandır",- deməsini Albaniyanın baş nazirinin "Kosovo Albaniyadır",- sözləri ilə eyniləşdirməsinin arxasında dayanan reallıq heç də yenilik deyil". Bunu SİA-ya millət vəkili Sahib Aliyev deyib. Deputatın sözlərinə görə, Kremldəkilər Dağlıq Qarabağı Ermənistanın bir hissəsi kimi görmürlər və görmək də istəmirlər: "Ola bilər ki, hayların özlərinə də bəlli olan bu reallığı açıq şəkildə dilə gətirməklə Rusiyanın xarici işlər naziri növbəti dəfə Ermənistanın baş nazirinə həddini göstərirdi amma əsla Qarabağ probleminin həllinin tezləşdirilməsinin tərəfdarı kimi çıxış etmirdi. Əgər o, problemin tezliklə çözülməsini və Azərbaycan torpaqlarının işğaldan azad olunmasını istəsəydi, onda "Rusiya Qarabağda yenidən döyüşlərin baş verməməsi üçün əlindən nə gəlir edəcək",-söyləməzdi. Deyərdi ki, Rusiya regionda savaş təhlükəsinin aradan qalxması üçün Ermənistandan qoşunlarını Azərbaycan torpaqlarından çıxarmasını tələb edir.

Bəzilərinin Lavrovon açıqlamalarından eyforiyaya qapıldıqlarını gördüyüm üçün bunları yazdım. Və mən belə hesab edirəm ki, Nikol Paşinyana görə Rusiyaının Dağlıq Qarabağ probleminə yanaşmada mövqeyinin dəyişəcəyini düşünmək yanılışdır. Bu problemin ədalətli çözümü ancaq və ancaq Azərbaycanın dayanmadan güclənməsindən, ölkədəki sabitliyin daha da möhkəmlənməsindən, əmin-amanlığı artmasından, böyük dövlətlər, o sıradan da Rusiya ilə qarşılıqlı maraq üzərində qurulan əməkdaşlığın dərinləşməsindən, Ermənistanın isə bütün cəbhələrdə davamlı təzyiq altında saxlanmasından keçir ki, cənab Prezidentin yeritdiyi və yürütdüyü siyasət də elə budur".

# Güllü Yoloğlu: "Dünya Türkologiya Mərkəzinin Azərbaycanda yaradılması xüsusi əhəmiyyət kəsb edir"



Azərbaycan istər dil, istərsə də ərazi baxımından türk dünyasını birləşdirən bir körpüdür. İllər keçdikcə bu körpü daha da möhkəmlənir, əhəmiyyəti artır. Bu baxımdan Dünya Türkologiya Mərkəzinin Azərbaycanda yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində tanınmış türkoloq Güllü Yoloğlu deyib. O bildirib ki, Bakı uzun illər qeyri-rəsmi olaraq dünya türkologiyasının mərkəzi olub. Birinci Türkoloji Qurultayın 1926-cı ildə Bakıda keçirilməsi, hələ sovet dövründə "Sovetskaya turkologiya" jurnalının doğma paytaxtımızda çap olunması bunun əyani göstəricisidir. Məqsədimiz türk xalqlarının tarixinin, ədəbiyyatının, dilinin və etnoqrafiyasının öyrənilməsi üçün dünya türkoloqlarını bir araya gətirmək, onların apardıqları tədqiqatları bir mərkəzdə cəmləşdirməkdir.

# “Cəbhədə” düyünlər haçalandıqca...

## AXCP-çi funksionerindən daha bir sərt ismarıc

*Fuad Qəhrəmanlının ailəsi ətrafında baş verən hadisələr o qədər böyüdü ki, Əli Kərimlinin özünə cəmiyyətin müxtəlif kəsimi tərəfindən istefa tələbləri səsləndi. AXCP-nin Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyev də bu tələbə qoşuldu və Kərimlini istefaya çağırmaqla yanaşı, növbəti ismarıcını səsləndirərək dələduzluq və bir çox xəyanətlərini üzə çıxardı.*

AXCP NTK-nın keçmiş sədri Aydın Əliyev Ə.Kərimlinin ölkədə ən böyük xəyanətkar və satqın olduğunu bildirib: **“Ən böyük xəyanətkar və satqın Əli Kərimli, sənsən. Və cəsarətin çatırsa, istefa ver!”**

A.Əliyev həmin video-müraciətində AXCP-nin sədri Ə.Kərimlinin “Milli Şura”nın “primadonnası”, minsifətli “titulu” olan Gültəkin Hacıbəyli tərəfindən maliyyələşdirildiyini də deyib: “Sən bu gün Gültəkin Hacıbəylini qəhrəman etmisən. Niyə? Çünki Gültəkin Hacıbəyli sənə maddi dəstək verir. Əli Kərimli, sən saxta partiya vəsiqələrini satmaqla məşğulsan. Ölkədə ən böyük xəyanətkar və satqın sənsən. Ömründə bir dəfə cəsarətin və mənliyin olsun, istefa ver”.

A.Əliyev, onu da vurğulayıb ki, birillik AXC-Müsavat hakimiyyətinin bəzi təmsilçiləri istər iqtidarda, istərsə də müxalifətdə olduqları zaman yalnız antimilli, dağıdıcı mövqe tutaraq, Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaq məqsədilə əməli fəaliyyət göstəriblər: “Müxalifətçi partiya sədri adı altında maskalanan Kərimlinin əsas məqsədi Azərbaycan dövlətinin strateji hədəflərinin sabotaj olunması, dövlətin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirmək olub. Mitinqlər keçirməkdə də məqsəd daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməklə, öz şəxsi mənafeyinə nail olmaqdır”.

### “Əli Kərimli bizim hər birimizdən öz şəxsi mənafeyi üçün istifadə edib”



A.Əliyev müraciətində partiyadaxili, xaricdən gələn qrant və s. pul məsələlərini ancaq öz nəzarətində saxlayan, özünün, ailəsinin və xaricdə yaşayan oğlunun ərəb şeyxləri kimi yaşamasına sərf edən Ə.Kərimlini mənim kimi düzgün, əqidəli adam qane etməyib: “Mən və mənim kimi yüzlərlə cəbhəçi Əli Kərimli tərəfindən aldadılmışıq. O, bizim hər birimizdən öz şəxsi mənafeyi üçün istifadə edib. Sözdə demokratiya uğrunda mübarizə aparıldığını desə də, əslində, partiyada sərt diktatura rejimi qurub. Fərqli düşünənləri, onun antidemokratik hərəkətlərinə etiraz edənləri ən çirkin üsullarla ləkələyib, böhtanlara məruz qoyub, partiyadan uzaqlaşdırıb”.

“Ə.Kərimli kimi xəyanətkarlar hələ də anlamırlar ki, Azərbaycan dünya üçün açıq, demokratik, bütün azadlıqların təmin olunduğu ölkədir. “Xalq yenidən siyasətdədir. Buna parlaq nümunə bizim 19 yanvar mitinqimizdir” deyən, mənəviyyat deyilən məfhumdan uzaq olan saxta, satqın və əxlaqsız Ə.Kərimli, elə zənn etdi ki, bununla müxalifət onu “lider” kimi qəbul edəcək. Və 19 yanvardakı rüsvayçı mitinqdən sonra AXCP sədri yenidən sosial şəbəkələrdə sentyabrın 28-də keçirmək isdədiyi mitinqə müxalifət partiyalarına və xalqa dayanmadan çağırışı oldu”. Bu fikirləri A.Əliyev Ə.Kərimliyə ünvanladığı növbəti ismarıcında deyib: “Ağlı başında olanlar Əli Kərimli kimi tülki cildinə girmiş erməni üfunəti verən satqının ətrafına toplaşa bilməz”.

### “Kərimli, mitinqi və ya “Motodrom”a gedənlər Lökbatana gedə bilməzdilərmi?”

A.Əliyev onu da vurğulayıb ki, Ə.Kərimliyə ən böyük zərbə iqtidar tərəfindən mitinqə icazə verilməsiylə vuruldu: “Çünki Ə.Kərimli bu icazəni qətiyyən gözləmirdi. “Yurd”dakı aparıcı adamlardan birinin dediyinə görə, Ə.Kərimlinin ümumi gözləntisi bu idi ki, mitinqə icazə verilməyəcək və “hökumət məndən qorxur, çünki mən real gücəm” hikkəsini ortaya qoyaraq, siyasi karyerasındakı ən ağır dönəmlərdən birindən bununla qurtulacaq. Mitinqə icazə verilməsi onun planlarını pozdu və Kərimli fakt qarısında qaldı. Ona görə ki, mitinq keçirmək indiki məqamda Kərimlinin arzulamadığı işdir. Onu mitinqin keçirilməsi deyil, mitinqə icazə verilməməsiylə qazandığı fürsət və düşdüyü ağır situasiyadan çıxmaq, hava-su kimi gərəkliydi. Amma əksi baş verdi. Bu da Ə.Kərimli üçün “pat vəziyyəti” yaratdı və onun planlarını pozdu”.

A.Əliyev onu da vurğulayıb ki, Ə.Kərimli Lökbatana niyə getmədi: “Axı, Kərimli bilir ki, ölkədə narazı qrup var. Mitinq icazəsi onun üçün göydəndüşmə idi və bu narazı elektoratın gücündən istifadə edə bilməzdimi? 2 sentyabr daha bir 8 ay, 10 ay üçün 19 yanvar mitinqi kimi danışıb, siyasi mövcudluq üçün manipulyasiya etmək fürsəti deyildimi? Bəs belə olan halda, Ə.Kərimlinin mitinq üçün ayrılmış ərazinin uzaqlığını (BŞİH Lokbatanda mitinq üçün yer ayırmışdı-müəll.) bəhanə gətirərək aksiyanı təxirə salmasının əsas səbəbi nə idi?”

AXCP funksioneri bildirir ki, Ə.Kərimlini romantik yox, realist adam saymaq olar: “Ona görə ki, “stajlı müxalifətçi” bilir ki, Lökbatana heç stadionun küncünü belə dolduracaq sayda adam apara bilməyəcək. Xalqın narazı kəsimi Kərimliyə inanmır və bu, dəfələrlə onun rəhbərlik etdiyi “Milli Şura”nın “Məhsul” stadionunda keçirdiyi mitinqlərdə, praktik olaraq görünüb. Ona görə də, bu dəfə mitinqdən də imtina etdi. Kərimlinin əsas meydanı olan sosial şəbəkə və “Youtube” kanallarındakı çıxışlarına baxış sayı, onun iddiası ilə qətiyyən uzlaşmır. Bunu artıq özü də etiraf edir. Üstəlik, onsuz da sayı iddiayla uzlaşmayan baxış sayı belə “Yurd” sədrinin tərəfdarlarının sayından xəbər vermir. Ə.Kərimli xalqın ona etimad və etibar etmədiyini bilir. Bu səbəbdən də, anlayır ki, onsuz da az sayda olan mitinq iştirakçısının olub-qalanını da Lökbatan yollarında itirəcək. Dəstəklənməyəcəyini bildiyindən, yeganə çıxış yolu kimi mitinqi təxirə salmağı gördü və özü də daxil olmaqla, bu qərarın absurdluğuna ətrafında olub-qalan az sayda insan da inandı. Halbuki xalq və narazı kəsim lider bildiyi adamın arxasınca, nəinki Lökbatana, bəlkə ölkənin o biri başına da getməyə hazır olur. Çox da uzaq olmayan tarixdə belə nümunələr var. Necə olur ki, Əbülfəz Elçibəyin bircə çağırışı ilə illər əvvəl 10 minlərlə adam “Motodrom” adlanan çöllübiyabana gedirdi və üstəlik, bu, o zaman baş verirdi ki, paytaxt Bakının nəqliyyat sistemi də elə “Motodrom” kimi kələ-kötür idi. İndi isə özünü hökumətə də, müxalifətə də müxalifətdə sayan, uğursuzluqlarının bütün minnətini xalqın boynuna yükləməyə çalışan Ə.Kərimli Lökbatana aparmaq üçün 2-3 min narazı tapa bilmir?! Halbuki o narazılar hər yerdə var, elə Kərimlinin 5 addım məsafəsində də. Sadəcə, onlar üçün Kərimlinin çağırışı ilə mitinqə getmək dibsiz quyuya çürük iplə enmək kimi bir şeydir”.

### Ləkəli keçmişi təmizləmək və yaddaşdan silmək mümkünsüzdür

Göründüyü kimi, dünyaya gəldiyi gündən xəyanət, satqınlıq, dələduzluq ermənipərəst Ə.Kərimlinin, bütünlüklə, canında və vicudunda olub. Sual edə bilərsiniz niyə? Niyəsi yoxdur. Bu yerdə, bu günə kimi deyilən və deyilməyənlər, açılan və açılmayan xəyanət xronologiyasına nəzər yetirmək kifayətdir. Ancaq bir məqamı da unutmaq “insafsızlıq” olardı. Sözün açığı, onun siyasi fırıldaqçılıq üsulları heç xəyanətindən geri qalmır. Necə deyərlər, şeytan da Ə.Kərimlinin əməllərinə həsəd aparar. Nə demək olar, zatı belədir də?! Bu adam, öz tələbə yoldaşlarına, birgə yaratdığı təşkilatın təsisçilərinə, partiyada birgə çalışdığı insanlara, ona çox böyük dəstək olmuş AXCP-nin sədri mərhum Əbülfəz Elçibəyə və nəhayət, qohum-əqrəbalarına xəyanət etməyi bacaran mənəviyyatsızdır. Görünür, buna görə də, siyasətlə məşğul olan hər kəs Ə.Kərimlini Azərbaycan siyasətinin xəyanət simvolu adlandırır. Milli maraqları sataraq, xəyanətlərinə yenilərini əlavə edən Ə.Kərimli üçün Vətən məfhumu arxa planda yer alır. Elə zənn edir ki, ölkədə yaşanan bu siyasi sabitliyi pozmaqla, mitinqlər keçirməklə, o, ləkəli keçmişini təmizləyə biləcək və yaddaşdan siləcək, bu, mümkünsüzdür. Tarix unudulmur və söhbət təkcə Əbülfəz bəyin zəhərlənməsindən getmir, digər bu günə kimi bulanıq-çirkli məsələlərdə də, məhz Ə.Kərimlinin adı həmişə öndə olur. Çünki Ə.Kərimli antiazərbaycançı mərkəzlərlə, Azərbaycanın düşmənləri ilə iş birliyi qurub, hakimiyyətə gəlmək istəyən qul psixologiyası ilə yaşayan, ağılsız, satqın və əxlaqsız erməni xidmətçisidir. Bu satqın Ə.Kərimli onu bilməlidir ki, xalqın qınağından qaçmaq olmaz. Çünki anadan olduğu gündən bu günə kimi getdiyi yol əyri olub. Necə deyərlər, qozbeli qəbir düzəldər...”

Bir sözlə, fakt isə budur ki, Ə.Kərimli düşmən olaraq qalmaqdadır. Xalqa düşmən kəsilməyə görə isə, cəza çox şiddətli olur. Cəzanı isə xalq verir. Bəlkə də Ə.Kərimli buna inanmır, barmaqarası baxır. Ancaq nə edək, gözləyək, çünki zaman bunu göstərəcək. Çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!..

**RƏFİQƏ HÜSEYNOVA**

# Ermənistan diplomatının Ukraynada separatçı fəaliyyəti və rəsmi Kiyevin sərt mövqeyi

Ukrayna və Ermənistan arasında diplomatik qalmaqal pik həddinə çatıb. Azərbaycanın Ukrayna ilə strateji, səmimi dostluğa söykənən əməkdaşlığı Ermənistanı açıq-açığına qıcıqlandırmağa başlayıb. Hətta vəziyyət o yerə çatıb ki, Ermənistanın Ukraynadakı səfiri Tiqran Seyranyan diplomatik sərhədləri aşaraq separatçı fəaliyyətlə məşğuldur. Görüşlərində, çıxışlarında qondarma “Dağlıq Qarabağ Respublikası”nın tanınmasına çağırışlar edir. “Baş diplomat”ın Ermənistanın müstəqilliyinin ildönümü ilə bağlı keçirdiyi rəsmi qəbulda çıxışı zamanı Azərbaycanın tarixi torpaqlarına həyasızcasına sahib çıxmaq cəhdi heç də orada iştirak edən xarici ölkə səfirlərinin, Ukrayna rəsmilərinin xoşuna gəlməyib.

Ukraynanın Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən qondarma “seçkilər”ə qarşı sərt bəyanatı, vətəndaşlarının aldanaraq Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa səfər etməmələrinə dair çağırışı Ermənistanı bərk narahat edib. Ona görə də son on gündə Ermənistan mediasında bu mövzu ana xəbərə çevrilib. Baxmayaraq ki, Ukraynanın rəsmi dövlət qurumlarında çalışan ermənilər azlıq təşkil etmir, rəsmi Kiyevin Azərbaycana strateji müttəfiq yanaşması Ermənistanın başağrısına çevrilib. Ermənistan tərəfinin, xüsusilə separatçı təlimatlar alan səfir Tiqran Seyranyanın hərəkətləri Ukrayna Xarici İşlər Nazirliyinin ciddi narazılığına səbəb olub. Maraqlısı odur ki, Ukraynanın milli maraqlarını heç vaxt müdafiə etməyən Ermənistan rəsmi Kiyevdən nələrsə umur. Əldə etdiyimiz məlumata görə, rəsmi Yerevanın Ermənistanın Ukraynadakı səfirliyinin nəzdində hərbi attaşe aparatının açılmasına dair müraciətinə rəsmi Kiyev “yox” cavabı verib. Ukrayna Ermənistanla bu il nəzərdə tutulan siyasi məsləhətləşmələrdən də imtina edib.



Hazırda Ermənistanın Ukraynada səfirliyi ilə yanaşı, Odessada baş konsulluğu, Xarkov və Ternopol şəhərlərində isə fəxri konsulluqları fəaliyyət göstərir. Ermənistan tərəfi bu diplomatik nümayəndəlikləri vasitəsilə rəsmi şəkildə ölkənin Ukraynada lobbiçilik maraqlarını həyata keçirir. Bütün bunların fonunda rəsmi Kiyevin Azərbaycanla dostluq münasibətlərinin daha da inkişaf etməsi Paşinyan hakimiyyətinin xoşuna gəlmir. Ona görə də Paşinyan dövrünün səfirlərinə, o cümlədən Ukraynadakı elçiliyinə qondarma “Dağlıq Qarabağ Respublikası”nın tanıdılması kimi xüsusi göstərişlər verilib. Bu baxımdan erməni mövqelərinin Ukraynada gücləməsinin qarşısını almaq üçün Azərbaycan resurslarını daha da möhkəmləndirməlidir.

# Türkiyədəki jurnalistdən Cəmil Həsənliyə - “Vicdanın olsun!”

*“Adam özünün super eqosunu təmin etmək üçün bir qaşıq suda şou göstərməz”*

***“Millət vəkili olanda, Azərbaycandakı iqtidarı yerə-göyə sığdıra bilməyən, dayanmadan ölkədəki davamlı inkişafdan danışan, millət vəkili seçilmədikdən, ona qarşı etimad göstərilmədikdən sonra sürətlə cinah dəyişdirib radikalların cərgəsində öz yerini rahatlayan “Milli Şura”nın sədri Cəmil Həsənli yenə aləmi vurub bir-birinə”. Bu fikirləri Türkiyədə yaşayan siyasi ekspert və jurnalist Oktay Hacımusalı “Facebook” sosial şəbəkəsində yazıb.***



“Artıq tez-tez canlı yayımlarında iştirak etdiyi Sevinc Osmanqızının “Youtube” kanalında bir vayveyla qaldırıb ki, bəs, Ankarada keçirilən elmi konfransda onun iştirakına mane olmaq istəyiblər” deyə bildirən Hacımusalı yazır: “İlk başda mənim ağlıma gəldi ki, bəlkə ümumiyyətlə, tədbir təxirə salınıb, nə isə, qeyri-adi hadisə baş verəndə, dəfələrlə təşkilati komitə qabaqcadan xəbər verib ki, tədbirimiz müəyyən səbəblərə görə təxirə salınıb, vaxt müəyyənləşdiriləndə, sizə xəbər edəcəyik. Düzü, mən belə düşünürdüm. Amma sən demə, elə bir hal baş verməyib. Tədbir də baş tutub, sadəcə, Cəmil müəllimin xətrinə dəyib ki, ayə, bəs niyə Azərbaycanın Ankaradakı səfirliyi və şəxsən cənab səfir Xəzər İbrahim bu tədbirdə iştirak etməyib? Ola bilər ki, Cəmil müəllim, dövlət- idarəetmə prosedurunu millət vəkili olanda, elə də dərindən öyrənmək şansına malik olmayıb, amma “zati-aliləri” Cəmil bəy bilməlidirlər ki, xaricdəki böyük elçilərimizin iştirak edəcəkləri tədbirlərin siyahısı əvvəlcədən müəyyən olunur və tanıyanlar da bilirlər ki, cənab Xəzər İbrahim Ankaraya səfir təyin olunduqdan sonra Azərbaycanın, sözün müsbət mənasında, təbliğatı baxımından qardaş ölkədə ciddi mənada ətalətə son qoyulub.”

“Türkiyədə demək olar ki, keçirilən bütün tədbirlərdə, imkan olduqca, Xəzər müəllim şəxsən özü iştirak edib” yazan jurnalist- ekspert əlavə edib ki, əgər məsələ, həqiqətən də, Cəmil Həsənlinin dediyi kimi olsaydı, daha niyə Azərbaycanın Ankaradakı səfirliyi digər türkdilli ölkələrin Ankaradakı səfirliklərində iştirak etmələri ilə bağlı müraciət ünvanlayırdı? SİTAT: “Ya da, ay çox hörmətli professor, səfirlik əgər özü tədbirin təşkilatçısı deyilsə, o zaman axı niyə digər ölkələrin səfirliklərinə müraciət imzalamalıdır? Cəmil müəllim iqtidardan narazı ola bilər ki, əslində, onun buna heç bir mənəvi haqqı yoxdur, amma ola bilər də olsun, amma bu ona əsla imkan və şərait yaratmır ki, Azərbaycanı xaricdə təmsil edən diplomatik korpus haqqında ağzına gələni danışsın. Alışıblar, deyəsən, hər şeyi qara rəngdə görməyə, hər şeydə bir naqislik, natəmizlik axtarmağa ki, bu sözlər elə C.Həsənlinin öz sözləridir, amma bu natəmizliyi, naqisliyi səfirliklərimizdə, xüsusən də, Ankaradakı səfirliyimizdə axtarmaq doğru deyil və ən azından, adamın vicdanı olar. Adam özünün super eqosunu təmin etmək üçün bir qaşıq suda şou göstərməz, Cəmil müəllim, siz axı müdriklik yaşındasınız...”

***Rövşən NURƏDDİNOĞLU***

# Mübariz Əhmədoğlu: “Ermənistanın baş naziri Nikol Paşinyan BMT BA-da reket-jurnalist kimi çıxış etdi”

***“BMT BA-da Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışına reket-jurnalistin çıxışı kimi yanaşmaq daha düzgündür”. Bu fikirləri Siyasi İnnovasiya Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu bildirib. M.Əhmədoğlu N.Paşinyanın reallıqda reket-jurnalistika metodundan istifadə etdiyini vurğulayıb: “N.Paşinyan vəziyyəti öz məqsədi üçün modelləşdirir, müəyyən bir məqamı post-faktum qəbul edərək, iddiasını da onun üzərində qurur. Guya Azərbaycan 1990-cı il və 2016-cı illərdə uğursuz əməliyyatlar reallaşdırıb və indi onların qisasını almaq istəyir. 90-cı illərdə hərbi əməliyyatlarla bağlı kifayət qədər məlumatlar yayılıb, amma hamı unudub ki, Ermənistan sülh müqaviləsinə ona görə razılaşdı ki, Azərbaycan Ordusu uğurlu Horadiz əməliyyatı keçirdi. Atəşkəslə bağlı sənədə Dağlıq Qarabağın adının yazılması isə, o vaxt rusiyalı diplomat V.Kazimirovun aktiv iştirakı ilə baş verdi”.***



Politoloq onu da söyləyib ki, Paşinyan nə qədər yalan, böhtan desə də, 2016-cı ildəki hərbi əməliyyatlarla bağlı vəziyyət bütün beynəlxalq ictimaiyyətə bəllidir: “Ən azı, hərbi əməliyyatlar dövründə prezident Serj Sarkisyan Almaniyaya qaçdı və məğlubiyyətlərinin səbəbini Rusiyadan köhnə silahlar alması ilə izah etdi. N.Paşinyan da BMT tribunasında özünü eynilə “Haykakan Jamanak” qəzetinin baş redaktoru kimi apardı; özünü kimdənsə 50-100 dollar alıb, hansısa dövlət rəsmisinə qarşı yazdığı yazı əhval-ruhiyyəsində hiss etdi”.

M.Əhmədoğlu Paşinyanın SSRİ-nin dağılması ilə bağlı dediklərinin də cəfəngiyyat olduğunu bildirib: “SSRİ-nin son dövrlərində, ən azı, 4 dəfə, ümumilikdə, sovet respublikalarının, o cümlədən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlər qəbul edib. Ən son sənəd 1991-ci ildə Belovej meşəsində Rusiya, Ukrayna və Belarus prezidentlərinin imzaladığı sənəddir. Orada keçmiş SSRİ dövlətlərinin ərazi bütövlüyü sonuncu dəfə təsdiqlənir. BMT-nin qəbul etdiyi prinsipə görə, SSRİ respublikaları Rusiyanın razılığı ilə, “uti-posidites” prinsipi əsasında BMT-yə üzv qəbul olunurlar.

SSRİ-dən çıxanda Azərbaycanın ərazi bütövlüyü artıq bəlli idi, eynilə həmin ərazilərlə də Azərbaycan BMT-yə üzv qəbul edildi: Dağlıq Qarabağ Azərbaycan Respublikasının de-yure ərazisidir. Bu, ayrı məsələdir ki, N.Paşinyan hədsiz savadsızdır, aşağı intellektlidir, şüuru böhtan kombinatorikası istiqamətindədir. Köməkçiləri ona həqiqəti deyə bilmirlər, çünki baş nazir N.Paşinyan onları qorxudub”.

***RƏFİQƏ HÜSEYNOVA***

# DİN: əvvəlki dövrlərdən bağlı qalmış 18 cinayətin açılması təmin olunub

Ötən gün 16 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən “isti izlər”lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 18 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 3 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 1 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində üç nəfər ölüb, iki nəfər xəsarət alıb. Daxili



işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli səkkiz fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 38 nəfər saxlanılıb.



## Erməni “dəyərli” əxlaqsızlar...

**RƏFİQƏ**

Söz açacağım və hər zaman məni düşündürən bir sualın cavabını almaq istəmişəm: “Özlərini ictimai rəyə müxalifətin “dədəsi”, “babası” kimi təqdim edənlərin “vicdandan”, “insani dəyərdən”, daha nə bilim, nədən danışmağa haqları varmı? Əgər belədirsə, bunların düşüncələri 0%-ə bərabərdir, yəni daha doğrusu, düşüncəsizdirlər, başqa bir adı da yoxdur! Namussuzun, şərəfsizin, vicdansızın, şəxsi maraqlarına görə hər şeyi satanın sadalananlar barədə danışması lap dinsizin inamsızdan, inamsızın da dindən danışması kimi bir seyrdir.

Bunlar, o kəslərdir ki, tarix boyu bollu-bərəkətli müqəddəs məmləkətimizin çörəyini yeyib, suyunu içib, sonra da milli maraqları satan xəyanətkarlar sürüsü kimi, bu gün erməni siyasətinin muzdlu nökərlərinə çevriliblər. Bu, hər zaman olub, bu gün də belədir. Bu gün də milli xəyanətkarlar sürüsünü otaranlar da ermənlər və onların böyük pullar buraxdığı təşkilatlardır.

Belə milli xəyanətkarlardan olan Ə.Kərimli, Cəmil və Gültəkin Hacıbəylilər, Xədicə İsmayıl, erməni “vəkilləri” Q.Məmmədov, Aslan İsmayılov və...erməni “dəyərli” nökərlər məlum, aşkar xəyanətlərinə görə, əlahəzrət qanun qarşısına çıxarılır! Və bu, o kəslərdir ki, 26 ildir bir-birinin üzlərinə elə tüpürürlər ki, silməyə bir şey də tapa bilmirlər. Çünki siləcəkləri hər bir şey mikrobludur. Onların gözlərini elə kor edib ki, ancaq pisliklər görürlər. Elə götürək Leyla Yunusu. I Dağlıq Qarabağ müharibəsi zamanı, 1992-93-cü illərdə Müdafiə Nazirliyinin analitik şöbəsinə rəhbərlik edərkən, Azərbaycan televiziyası vasitəsilə çıxışlarında, xəritələr vasitəsilə (!!!-R.H.) mövqelərimizi erməniyə nişan verirdi! Həmin Leyla Yunus ki, yalnız həqarət edəndə, söyüş söyəndə, küfr səsləndirəndə Azərbaycan dilində danışdığını etiraf edib! Həmin Leyla Yunus ki, dəfələrlə Ermənistanda, Qərbi Avropada səfərlərdə olarkən, orada erməni kəşfiyyatçsının xəfiyyələri ilə görüşərək, təlimatlar alıb, onların yerinə yetirilməsi üçün, verbovkalarla məşğul olub! Və həmin Leyla Yunus ki, o, həbs olunarkən, cəbhədəki gərginlik zamanı şəhid olan əsgərlərimizin daha çox ölməsini arzu edən qızı xitabən “Azərbaycan əsgərləri gəbərsinlər” deyə ermənicəsinə bağırıb, özü də fahişəcəsinə!

Eyni ilə, Ə.Kərimli. 2016-cı ilin aprel hadisələri zamanı xalqımız böyük zəfərə sevindiyi halda, Ə.Kərimli mənəviyyatsız C.Həsəenli, Gültəkin Hacıbəyli, Arif Hacılı kimi mənəviyyatsızlar qələbənin mahiyyətini təhrif etməyə, ordumuzun uğuruna kölgə salmağa çalışdılar. Dağıdıcılar aprel döyüşləri zamanı şəhid olan hərbçilərimizin dəfn mərasimlərində iştirak edərək, öz çirkin niyyətlərini həyata keçirməyə çalışırdılar. Bununla, onlar şəhidlərin ruhuna, onların doğmalarına, əzizlərinə qarşı böyük sayğısızlıq sərgiləyirdilər. Ona görə də, insanlar Ə.Kərimli və onun kimilərin cəmiyyətdən təcrid olunmasını tələb edirlər. 25 ildən çoxdur ki, bu yolu gedən alçaq düşərgə sakinləri bu gün də erməni üfunəti verən çirkabda eşələnə-eşələnə qalıblar. Eyni ilə əqidəsizlərin, satqınların, ikiüzlülük, xəyanət, paxıllıq, xəbislik, şantajçılıq və pul hərisliyinin orjinalları Cəmil və Gültəkinin ətrafında cəmləşməsidir. Amma Cəmillə Gültəkin azərbaycanlı adları və soyadlarını daşısalar belə, real daşıdıqları “dəyər” azərbaycanlı olmaq dəyərindən qat-qat uzaqdadır. Hətta o qədər uzaqdadır ki, erməni “dəyəri” və marağı daha yaxındır belə əxlaqsızlara. Ancaq bir faktı deməmək də haqsızlıq olar. Yəni onlar Ə.Kərimlidən artıq ola bilməzlər. Faktdan qaçmaq olmaz. Necə deyərlər, su axıb, çuxurunu tapar. Cəmil və Gültəkin AXCP-”Milli Şura” adlı çuxura düşüblər. “Azadlıq” isə olub bunların ruporu. Dünənə qədər Gültəkin Hacıbəyli YAP-ın seçki platformalarının təbliğatında öndə gedənlərdən biri idi. Amma bir dəfə deputat seçilməyən kimi, nəinki döndü oldu müxalifətçi, xeyr! Döndü oldu dağıdıcı, barışmaz, aşırı dağıdıcı müxalifətçi! İndi də başlayıb qarşıdakı bələdiyyə seçkiləri ərəfəsi, “erməni bayrağının” altına girməyə. Neyləsin, bir növ adətkardır. Belə olmasaydı, keçmiş qaynanası demişkən, 6 aydan bir girənlik etməklə, 4 dəfə ərə getməzdi.

Cəmil Həsənlidən isə danışmağa dəyməz. Çünki onun haqqında çox danışılıb. Gəl indi buna “şərəfli siyasət” donu geyindir, görüm, necə geyindirirsən! Elə bilirsiniz, bunula erməni siyasətinin muzdlu nökərlərinin sayı qurtarır? Əsla, yox! Elə A.Hacılı da, İ.Qəmbər də, o biri də, bu biri də eyni bezin qıraqlarıdırlar - şərəfsiz erməni “dəyərli” əxlaqsızlar.

# Azərbaycan Ombudsmanının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyəti

***İnsanların informasiya əldə etmək hüququnun təmin edilməsi üzrə təcrübənin öyrənilməsi və mübadiləsi məqsədilə tədbir və müzakirələrin keçirilməsi, bu sahədə təkliflərin formalaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi də əhəmiyyətli olmuşdur.***

Uşaq və gənclərə İKT-dən düzgün istifadə vərdişlərinin aşılanması, valideynlərin məsuliyyətinin artırılması, televiziya kanallarında uşaq və gənclərə ünvanlanan verlişlərin, sosial reklamların yayımlanması, zərərli məlumat yayan verilişlərin və onların anonslarının xüsusi ayrılmış vaxtda göstərilməsi və buna nəzarətin gücləndirilməsi, milli-mənəvi dəyərlərimizi təbliğ edən internet portallarının yaradılması, uşaqların mobil telefon vasitəsilə internetdən istifadəsinin təhlükəsizliyinin təmin edilməsi, bu problemlərlə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq sənədlərin ratifikasiya edilməsi ilə bağlı Müvəkkil tərəfindən müvafiq qurumlara tövsiyələr verilmişdir.

Fiziki sağlamlığın təhlükələrdən qorunmasının hüquqi təminatının mövcud olmasına baxmayaraq, insan mənəviyyatına və psixikasına olan təhlükələrə bağlı müdafiə mexanizmlərinin, o cümlədən, qadağa və cəzaların müəyyən edilməməsi və ya yetərincə olmaması, bunun isə hər bir kəsin, o cümlədən, uşaqların mənəvi sağlamlığını təhlükə altında qoyduğu nəzərə alınaraq, cəmiyyətdə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, bu istiqamətdə maarifləndirmə işinin aparılması zəruridir.

Qeyd olunmalıdır ki, hazırda informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, eyni zamanda, əhalinin həssas qruplarına da təsirsiz ötüşməmişdir. Etiraf edilməlidir ki, internetin müsbət cəhətləri ilə yanaşı, mənfi təzahürləri də vardır və bu da, ilk növbədə, uşaqların tərbiyəsində özünü göstərir. Belə ki, uşaq və yeniyetmələr virtual məkanın imkanlarından istifadə edərkən, öz dünyagörüşünə və mənəviyyatına zidd olan informasiyalarla qarşılaşır və nəticədə, mənəvi-psixoloji sarsıntılara məruz qalırlar.

Uşaqların mobil telefondan təhlükəsiz istifadə etmələri üçün qaydaların, həmçinin, uşaqların informasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə qaydaları üzrə kitabçanın (bələdçinin) birgə hazırlanması təklifi ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edilmişdir.

İnformasiya sahibi olan dövlət qurumlarının "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş vəzifələrin icrası üzrə arayışlarının göndərilməsi, təhlili, ümumiləşdirilməsi və Müvəkkilin internet səhifəsində yerləşdirilməsi, qeyd edilən qanunvericiliyin izahı ilə bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, informasiya sahibləri olan dövlət qurumlarının müvafiq struktur bölmələrinin əməkdaşları tərəfindən həmin qanunun müddəalarının dərindən öyrənilməsi və tətbiqi, informasiya sorğularının təmin edilməsi üçün icra mexanizmlərinin təkmilləşdirilməsi, dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin genişləndirilməsi, dövlət qurumlarının internet səhifələrinin yaradılması və inkişaf etdirilməsi, elektron-məlumat toplusunun (reyestrin) yaradılması, mətbuat xidmətlərinin əməkdaşları, kütləvi informasiya vasitələri nümayəndələri və ümumilikdə, əhali üçün paytaxt və regionlarda geniş hüquqi maarifləndirmə və təbliğat işinin aparılması, bölgələrdə əhalinin məlumatlandırılması üçün "Açıq qapı" tədbirləri təcrübəsinin genişləndirilməsi, əməkdaşlığın əlaqəli və canlı şəbəkə şəklində qurulması, mətbuat nümayəndələrinin peşəkarlığının yüksədilməsi, onların müasir informasiya-kommunikasiya texnologiyalarına yiyələnməsinə diqqətin artırılması kimi təklifləri irəli sürülmüşdür.

Dinlərarası dialoqun getdikcə gücləndiyi və dünyada tolerantlıq nümunəsinə çevrilmiş ölkəmizdə bütün dinlərə mənsub insanların - müsəlmanların, xristianların, o cümlədən, pravoslav və katoliklərin, yəhudilərin sərbəst şəkildə öz inanclarına etiqad etmələrinə münbit şərait yaradılmışdır.

2000-dən artıq məscid, 550 ziyarətgah, onlarca kilsə, sinaqoq, ibadət evləri, respublikada yaşayan xalqların dini keçmişi ilə əlaqədar olan 500-dən artıq ibadətxanaların mövcud olduğu Azərbaycanda bütün millət, xalq, etnik qrup və dinlərin nümayəndələrinin dostluq və qardaşlıq şəraitində dinc yanaşı yaşamaqda davam etmələri böyük örnək, habelə, qarşılıqlı hörmət və həmrəylik nümunəsidir.

Müvəkkil ötən illərdə dini radikalizmin və dini ekstremizmin qarşısının alınması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsini təklif etmişdir. Bu baxımdan, "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Qanununun qəbul edilməsi, habelə, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa və Cinayət Məcəlləsinə müvafiq əlavə və dəyişikliklər edilməsi bu sahədə məsələlərin hüquqi tənzimlənməsində əhəmiyyətlidir.

Dini icmaların qanun çərçivəsində azad fəaliyyəti üçün zəruri şəraitin yaradıldığı ölkəmizdə müvafiq sahə üzrə qanunvericilik aktları beynəlxalq hüququn norma və prinsiplərinə uyğunlaşdırılmış, həm milli qanunvericilikdə, həm də beynəlxalq hüquqda vicdan və din azadlığının təmin edilməsi sahəsində bir sıra məhdudiyyətlər də nəzərdə tutulmuşdur. Bu baxımdan, Azərbaycan Respublikası Baş Prokurorluğunun rəsmi məlumatına əsasən, respublikada ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətməyi planlaşdıran və din pərdəsi altında fəaliyyət göstərən silahlı cinayətkar dəstə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, şəriət qanunları ilə idarə edilən dini dövlət qurulması məqsədilə "Müsəlman birliyi" adlı hərəkat yaratmış, Bakı şəhərindən və respublikanın digər bölgələrindən özlərinə tərəfdarlar toplamış, onları müxtəlif növ odlu silah, döyüş sursatı, partlayıcı maddə və qurğularla təchiz edərək, cinayətkar dəstə təşkil etmişlər. Həmçinin, paytaxtın Nardaran qəsəbəsində qanunsuz yığıncaqlar keçirərək, respublikanın əhalisini hakimiyyətə qarşı qaldırmağın yollarını müzakirə etmiş, bununla bağlı tərəfdarlarına göstərişlər vermiş və əhaliyə çağırış vərəqələri paylamışlar.

Nardaran hadisələri zamanı uşaqlardan dini məqsədlər üçün istifadə olunması, onların təhsildən yayınması halları baş vermişdir ki, bu da, ciddi narahatlıq doğurur.

İstər qanuna, istərsə də vicdan və əqidə azadlığı prinsiplərinə, ümumilikdə, insan hüquqlarına tamamilə zidd olan belə fəaliyyəti Müvəkkil qətiyyətlə pisləyir, bundan sonra da belə hərəkətlərin qarşısının alınmasını vacib hesab edir.

Cəzaçəkmə müəssisələrində keçirilmiş baxışlar zamanı vicdan azadlığı ilə bağlı məsələlər diqqətdə saxlanılmışdır. Bununla yanaşı, Müvəkkil məhkumların din vasitəsilə islah edilməsini, din xadimlərinin məhkumlarla dini-tərbiyəvi və mənəvi-əxlaqi işin aparılması üçün cəzaçəkmə müəssisələrinə dəvət olunmasını təklif etmişdir.

Müvəkkil dini konfenssiya, təşkilat və icmaların nümayəndələri ilə görüşləri zamanı onlara dini etiqad azadlığı sahəsində milli qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq hüquqi sənədlərin tələblərini izah etmiş, respublikada fəaliyyət göstərən dini icmaların qanunauyğun fəaliyyət göstərməsinin zəruriliyini bildirmişdir.

Yehovanın Xristian Şahidləri Avropa Assosiasiyasının ölkəmizdə səfərdə olan nümayəndələri, din azadlığı üzrə müşavir Mark Hansen, həmin assosiasiyanın Rəhbər Komitəsinin sədri Vasiliy Kalın və bu dini təriqətin yerli icmasının təmsilçiləri təsisat da qəbul edilmiş, ölkəmizdə dini tolerantlıq və vicdan azadlığının təmin edilməsi ilə bağlı məsələlər burada müzakirə olunmuşdur.

Müvəkkil irqi, milli, dini və digər mənsubiyyətinə görə ayrı-seçkilik, ksenofobiya, etnik təmizləmə və digər bu kimi hallarla mübarizənin milli insan hüquqları institutlarının və insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq qurumların prioritet vəzifələri sırasına daxil edilməsini, insan hüquqlarının kobud pozuntuları ilə müşayiət olunan cinayətlərə yol vermiş dövlətlərin beynəlxalq səviyyədə cəzalandırılması istiqamətində səylərin birləşdirilməsini tövsiyə etmişdir.

Multikulturalizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə ölkə Prezidentinin müvafiq Sərancamına əsasən, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi də artıq respublikamızda multikulturalizmin alternativi olmayan həyat tərzinə çevrilməsinin real ifadəsidir.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirildiyi 2015-ci ildə Müvəkkil Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıqda regionlarda silsilə maarifləndirmə tədbirləri keçirmişdir. Həmin tədbirlərdə MSK-nın məsul işçiləri, müvafiq yerli icra hakimiyyətlərinin, məhkəmə, prokurorluq və polis orqanlarının, bələdiyyələrin, dairə və məntəqə - seçki komissiyalarının, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin, vətəndaş cəmiyyəti təsisatları və icmaların nümayəndələri iştirak etmişlər.

Müvəkkil müstəqil müşahidəçi qismində paytaxtın hər bir rayonunda bir çox seçki dairələri üzrə seçki məntəqələrində, həmçinin, 6 saylı cəzaçəkmə müəssisəsində, qadınlar üçün 4 saylı cəzaçəkmə müəssisəsində, Penitensiar Xidmətin Tərbiyə Müəssisəsində saxlanılan 18 yaşına çatmış üç gəncin ilk dəfə səsverməsini, hərbi hissədə təşkil edilmiş, habelə, məcburi köçkünlər üçün yaradılmış məntəqələrdə səsvermə prosesini müşahidə etmişdir. Respublikanın müxtəlif bölgələrində müşahidəçi qismində səsvermə prosesində iştirak edən əməkdaşlarından hər saat məlumatlar qəbul edərək, vəziyyətə nəzarət etmişdir.

Səsvermə günü Müvəkkil müşahidələrin nəticələrini ümumiləşdirmiş, MSK-nın Seçkilər İnformasiya Mərkəzində KİV-lərə geniş müsahibələr vermiş və ictimaiyyətin diqqətinə çatdırmışdır. Müşahidələrin nəticəsi olaraq, qeyd edilməlidir ki, xalqımızın və demokratik hüquqi dövlət quruculuğu yolunu seçmiş müstəqil dövlətimizin həyatında xüsusi əhəmiyyət kəsb edən Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər demokratik, şəffaf, ədalətli şəraitdə keçirilmiş, hər hansı bir dövlət qurumunun rəsmiləri, icra hakimiyyəti nümayəndələri və polis tərəfindən seçkilərə müdaxilə halları müşahidə edilməmiş, seçicilər sərbəst seçim edərək, istədiyi namizədə səs vermiş, seçkilər yüksək fəallıqla və mütəşəkkilliklə başa çatmışdır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 4 oktyabr





## YAP Tərtər rayon təşkilatının Cəhləbad ərazi ilk partiya təşkilatında görüş keçirilib

***YAP Tərtər rayon təşkilatının Cəhləbad ərazi ilk partiya təşkilatında cari ilin sonunda keçiriləcək növbəti bələdiyyə seçkilərinə hazırlıq işləri ilə bağlı görüş keçirilib.***

Görüşdə çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin verdiyi müsbət nəticələrdən və bunun sayəsində vətəndaşların firavanlığının daha da yaxşılaşdırılmasına göstərilən qayğıdan, ölkəmizdə siyasi sabitliyin və əmin-amanlığın bərqərar olmasından, regionların, o cümlədən cəbhə bölgəsi Tərtər rayonuna göstərdiyi diqqət və qayğıdan danışıb.

Rayon təşkilatının sədri, həmçinin, ölkəmizdə keçiriləcək yerli özünüidarəetmə orqanları olan bələdiyyələrə seçkilərlə bağlı hazırlıq



işlərinə toxunub: "Ölkəmizdə keçirilən bütün seçkilər, o cümlədən, bələdiyyə seçkiləri demokratik, şəffaf və aşkarlıq şəraitində keçirilib. Bunun səbəbi isə, bu şəffaflığa YAP daima diqqət yetirib. Buna görə də, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də partiyamız mütləq qələbə əldə edəcək".

R.Şabanov son dövrlərdə radikal müxalifətin ölkə daxilində, eləcə də, xaricdəki emissarları tərəfindən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası barədə də məlumat verərək qeyd edib ki, hər bir vətəndaş, xüsusilə, artıq 26 ildir ki, hakim siyasi partiya olan YAP-ın üzvlərinin bu kimi çirkin oyunları törədənlərə layiqli cavab verməyi və bu istiqamətdə ərazi ilk partiya təşkilatının fəallığının artmasını mühüm vəzifə olaraq qarşıya qoyub.

Görüşdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Xəyal Aslanov, partiya və əmək veteranı İmam Almuradov, partiya üzvləri Gülbəniz Məmmədova, Almaz Quliyeva və başqaları da bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü daxili və xarici siyasəti, birmənalı şəkildə dəstəkləyən kənd sakinləri, həmişə olduğu kimi, bundan sonra da partiyamızın ətrafında daha sıx birləşib, ölkəmizin sürətli inkişafının davamına öz töhfələrini verəcəklər.

***RƏFİQƏ HÜSEYNOVA***

## ELAN

Şərur rayon Hərbi Komissarlığı tərəfindən 30.03.2001-ci ildə Əskərov Əvəz Həbib oğlunun adına verilmiş 050638 saylı Qarabağ müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## YAP Zərdab rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib





***Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib. Görüşdə bir sıra məsələlər müzakirə olunub və fikir mübadiləsi aparılıb. YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova Yeni Azərbaycan Partiyasının təkcə ölkənin deyil, regionun aparıcı siyasi təşkilatı olduğunu deyib.***

P.Mahmudova ölkədə keçirilən bütün seçki proseslərində Yeni Azərbaycan Partiyasının qələbəsini onun yenilikçi və monolit partiya olması ilə əlaqələndirib, partiyanın siyasi kursunun əsas aspektlərindən, rayon təşkilatının qarşıda duran vəzifələrindən danışıb. Tədbirdə ərazi ilk partiya təşkilatlarında işin günün tələbləri səviyyəsində qurulması, partiya sıralarına qəbul, üzvlük haqlarının vaxtında toplanması məsələləri müzakirə olunub. Ərazi ilk partiya təşkilatlarında maarifləndirici təbliğat tədbirlərinin gücləndirilməsini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

İlk partiya təşkilatlarında uçot-dəqiqləşdirmə işlərinin mütəmadi və operativ olaraq, aparılmasının vacibliyi qeyd olunub. Partiya üzvləri ilə daim ünsiyyətin saxlanılması və onlarla birgə layihələrin, tədbirlərin keçirilməsi ərazi ilk partiya təşkilatlarının sədrlərinə tövsiyə olunub.

P.Mahmudova çıxışının sonunda günümüzün mühüm sosial ünsiyyət vasitələrindən biri olan sosial şəbəkələrin gündəlik və ictimai həyatımızdakı rolundan danışıb. Vurğulayıb ki, partiya üzvləri sosial şəbəkələrdə daim fəal olmalı, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən mühüm iqtisadi-siyasi və sosial islahatlar barədə maarifləndirici məlumatlar paylaşmalıdırlar. Həmçinin, dövlətimiz və ölkə rəhbərliyi haqqında əsassız informasiyalar yayan, ictimaiyyəti çaşdırmağa cəhd edən, xaricdən maliyyələşən bir qrup qaragüruhçu, vicdanını, şərəf və ləyaqətini itirmiş insanlar ifşa edilməli, bugünkü inkişafımızdan, uğur və nailiyyətlərimizdən, insanların rifahının yaxşılaşmasına istiqamətlənmiş proqram və layihələrin uğurlu nəticələrindən söhbət açılmışdır.

***ZÜMRÜD BAYRAMOVA***

## YAP Xaçmaz rayon təşkilatı ərazi ilk partiya təşkilatlarında görüşlər keçirilib

***Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı ərazi və məhəlli ilk partiya təşkilatlarında görüşlərə start verilib. Bu sıradan növbəti görüşlər isə, dünən rayon təşkilatının "Qımıl qışlaq" kənd ərazi ilk partiya təşkilatlarında keçirilib.***




Tədbirdə qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq, eləcə də, ictimai-siyasi proseslərdə "Qımıl qışlaq" ərazi ilk partiya təşkilatının



üzvlərinin üzərinə düşən vəzifələr və s. məsələlər barədə danışılıb, tapşırıq və tövsiyələr verilib. Qeyd olunub ki, xüsusilə, ilk partiya təşkilatlarında təşkilatlanma işinin gücləndirilməsi, partiya fəallarının gücündən səmərəli istifadə edilməsi, onların ölkəmizin əldə etdiyi uğurların rayon əhalisinə çatdırılmasında fəal təbliğatçı olmaları bildirilib.

***R.HÜSEYNOVA***


***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**